

*Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının İcraiyyə Komitəsi xalqımızı qarşıdan gələn Novruz bayramı münasibətilə təbrik edir.*




# ülfət

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ

QƏZET 1991-Cİ İLDƏN ÇIXIR

CÜMƏ AXŞAMI, 17 MART 2022-Cİ İL / № 10 (1277)

WWW.ULFET-AZ.COM / ULFET-AZ@MAIL.RU





BAX SƏHİFƏ: 2

## Prezident İlham Əliyev

## *Qaradağ Günəş Elektrik Stansiyasının təməlqoyma mərasimində iştirak edib*

## Prezidentin Mətbuat Xidmətinin məlumatı

**Martın 15-də Amerika Birləşmiş Ştatlarının dövlət katibi Entoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

**Söhbət zamanı Cənubi Qafqaz regionunda postmünaqişə dövrünə aid məsələlər, o cümlədən Ermənistanla Azərbaycan arasında normallaşma prosesi barədə fikir mübadiləsi aparılıb.**

**Telefon danışığı əsnasında regional təhlükəsizlik məsələləri də müzakirə edilib.**

**Amerika Birləşmiş Ştatlarının dövlət katibi Entoni Blinken Ukraynaya humanitar yardım göstərdiyinə görə Azərbaycana təşəkkürünü bildirib.**

## AHİK 4 MİNDƏN ÇOX AİLƏYƏ BAYRAM SOVQATI GÖNDƏRİB

**Martın 16-da Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) tərəfindən Novruz bayramı münasibətilə respublikanın 76 rayonunda yaşayan 4 065 aztəminatlı ailəyə ərzaq dolu maşın karvanının yola salınması mərasimi keçirilib.**



**Mərasimdə AHİK sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev jurnalistlərə müsahibəsində bildirib ki, Azərbaycan həmkarlar ittifaqları şəhid ailələrini, qaziləri, müharibə iştirakçılarını, bundan başqa, aztəminatlı ailələri hər zaman diqqətində saxlayır, imkanları daxilində heç bir köməyi onlardan əsirgəmir: "Biz istər Pandemiya, istərsə də Vətən müharibəsi və ondan sonrakı dövrlərdə həssas əhali qruplarına müxtəlif yardımlar etmişik. Bu işdə sahə həmkarlar ittifaqları da aktivdir. Bütün əlamətdar günlərdə onlara lazımi köməkliklər göstərilir. Biz həmçinin şəhid ailələrinin, onların övladlarının problemləri ilə daim maraqlanır, demək olar ki, imkanımız daxilində onlara hər cür dəstəyi verməyə çalışırıq".**

BAX SƏHİFƏ: 4

## Milli Məclisdə Nazirlər Kabinetinin *2021-ci ildə fəaliyyətinə dair hesabatı dinlənilib*

**Martın 15-də Milli Məclisin yaz sessiyasında növbəti plenar iclası keçirilib. İclasda Nazirlər Kabinetinin 2021-ci ildə fəaliyyətinə dair hesabatı dinlənilib.**

İclası **Milli Məclisin sədri Sahibə Qafarova** açıb. O Nazirlər Kabinetinin illik hesabatlarının Milli Məclisdə dinlənilməsinin parlamentlə hökumət arasında təmasların artmasına, sosial-iqtisadi inkişaf məsələlərinin obyektiv araşdırılmasına və həllində deputatların iştirakına şərait yaratdığını vurğulayıb. Sahibə Qafarova qeyd edib ki, ötən il parlamentdə Nazirlər Kabinetinin hesabatının müzakirəsi zamanı irəli sürülmüş təkliflər, həmişə olduğu kimi, yenə də Hökumət tərəfindən diqqətlə araşdırılıb.



**Sonra Baş nazir Əli Əsədov Nazirlər Kabinetinin 2021-ci ildə fəaliyyətinə dair hesabatla çıxış edib. Bildirib ki, Prezident İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində 2021-ci ildə Azərbaycanda sosial-iqtisadi inkişaf tempi davam edib. İnkişafdan hər bir vətəndaşın bəhrələnməsi, işğaldan azad olunmuş ərazilərə əhalinin qayıdışı məqsədilə Prezident "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" ilə bağlı Sərəncam imzalayıb. Hökumət tərəfindən strategiya artıq təsdiq üçün təqdim olunub.**

Baş nazir deyib ki, Azərbaycanda makroiqtisadi tarazlığın qorunması istiqamətində zəruri tədbirlər həyata keçirilir. Pandemiyaya baxmayaraq, həyata keçirilən çevik tədbirlər, vaksinasiya nəticəsində məhdudiyyətlərin aradan qaldırılması iqtisadi fəallığın bərpa olunmasına imkan verib.

**2021-ci ildə xarici ticarət dövriyyəmiz təxminən 35,6 milyard ABŞ dollarına çatıb, müsbət ticarət saldosu 12,1 milyard ABŞ dollarını ötüb. 2020-ci illə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 46,9 faiz real ifadədə 5 faiz artıb.**

İxracın real artımı 17 faiz olub, idxal isə 10 faiz azalıb. Qeyri-neft ixracı 2,7 milyard ABŞ dolları təşkil etməklə real ifadədə 38,4 faiz artıb.

**Ötən il ərzində vergi və gömrük daxilolmaları üzrə yığımlar proqnozdan 1,7 milyard manatdan çox olub ki, bu vəsait də, Prezidentin qeyd etdiyi kimi, 2022-ci ilin dövlət büdcəsinin sosialyönümlü xərclərinin artımına yönəldilib.**

Rusiya-Ukrayna müharibəsi, eləcə də regionumuzda baş verən hadisələr ölkəmizə təsirsiz ötüşmür. Ukraynada yaşayan vətəndaşlarımızın və soydaşlarımızın təxliyəsi, eyni zamanda təhlükəsizliklərinin təmin olunması diqqətdə saxlanılır. Ukraynada müharibə başlayandan bu günədək ölkəmizə 9246 nəfər təxliyə edilib.

**2022-ci ildə hökumətin qarşısında duran əsas vəzifələr və nəzərdə tutulan işlər barəsində də qısa məlumat verib. Cari ildə hökumətin "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"ndan irəli gələn əsas prioritet vəzifələrini qeyd edib.**

Sonra Nazirlər Kabinetinin 2021-ci ildəki fəaliyyəti haqqında hesabatının müzakirələri aparılıb.

Baş nazir Əli Əsədov deputatlar tərəfindən qaldırılan məsələlərə münasibət bildirdikdən sonra hesabat səsə qoyularaq nəzərə alınıb.

**Bununla da Milli Məclisin 2022-ci ilin yaz sessiyasının növbəti iclası başa çatıb.**

## AHİK-in İcraiyyə Komitəsi:

### *Avropa Parlamentinin qətnaməsi heç kimdə şübhə doğurmayacaq qədər böhtandır*

BAX SƏHİFƏ: 3

### *Azərbaycan həmkarlar ittifaqları "YAŞAT" Fonduna 658 870 manat vəsait köçürüb*

BAX SƏHİFƏ: 3

## Azərbaycandan Ukraynaya növbəti humanitar yardım

**Azərbaycan dövləti tərəfindən Ukrayna xalqına humanitar yardım məqsədilə təcili və təxirəsalınmaz hallarda tibbi yardımın göstərilməsi üçün dərman vasitələri və tibbi sərf, eləcə də ərzaq və qida məhsullarından ibarət növbəti yardım martın 12-də yola salınıb.**




AZƏRTAC xəbər verir ki, ümumi məbləği 5,5 milyon avrodan artıq olan 380 tonluq humanitar yardımın Polşanın Rjeşov hava limanına çatdırılması üçün ilk təyyarə saat 09:00-da Heydər Əliyev adına Beynəlxalq Hava Limanından yola düşüb. Yardımın daşınması məqsədilə gün ərzində növbəti uçuşların həyata keçirilməsi nəzərdə tutulub.

**Xatırladaq ki, Ukraynadakı vəziyyətlə əlaqədar ölkə rəhbərliyinin tapşırığı ilə Azərbaycan tərəfindən Ukraynaya dərman vasitələri, tibbi sərf, cihaz və avadanlıqlardan ibarət 5,5 milyon avro məbləğində ilk humanitar yardım böhranın ilk günlərində - fevralın 27-də göndərilib.**

# Prezident İlham Əliyev Qaradağ Günəş Elektrik Stansiyasının təməlqoyma mərasimində iştirak edib




**Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti tərəfindən Azərbaycanda inşa ediləcək 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının martın 15-də Gülüstan sarayında təməlqoyma mərasimi keçirilib.**

**AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.**

**Dövlətimizin başçısı tədbirdə çıxış etdi.**

## Prezident İlham Əliyevin çıxışı

**-Hörmətli xanımlar və cənablar.**

**Hörmətli qonaqlar.**

Bu gün ölkəmizin energetika sahəsində çox əlamətdar bir gündür. Bu gün Qaradağ Günəş Elektrik Stansiyasının təməli qoyulur. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik etmək istəyirəm. Doğrudan da çox önəmli bir hadisədir, 230 meqavat gücündə olan bu stansiya həm ölkəmizin enerjiyə artan tələbatını ödəyəcək, eyni zamanda, ixrac imkanlarımızı da genişləndirəcək.

**Mən çox şadam ki, bu böyük layihənin icraçısı dünyada tanınmış və bu sahədə böyük təcrübəsi olan "Masdar" şirkətidir. Qeyd etdiyim kimi, "Masdar" şirkətinin bu sahədə çox böyük təcrübəsi var, bir çox ölkələrdə uzun illər uğurla fəaliyyət göstərir. Əlbəttə ki, bu şirkətin Azərbaycana sərmayə qoyması çox təqdiredici bir haldır. Bu, bir daha onu göstərir ki, Azərbaycan xarici sərmayə üçün çox cəlbedici ölkədir, açıq ölkədir. Azərbaycanda çox gözəl investisiya iqlimi vardır və eyni zamanda, Azərbaycan xarici tərəfdaşlar qarşısında üzərinə düşən bütün öhdəliklərini yerinə yetirir. Xarici sərmayənin Azərbaycana böyük həcmdə qeyri-neft sektoruna qoyulması bizim əsas prioritetlərimizdən biridir. Çünki uzun illər neft-qaz sahəsinə 10 milyardlarla dollar sərmayə qoyulubdur. Bu, bizə imkan verdi ki, enerji sahəsində istədiyimizə nail olaq. Bu gün Azərbaycan həm xam neft, təbii qaz, neft məhsulları və elektrik enerjisini ixrac edən ölkədir. Bizdə elektrik enerjisinin ixracı nöqteyi-nəzərdən böyük potensial var. Biz dörd qonşu ölkəyə ixracı artıq təmin etmişik və əminəm ki, gələcəkdə digər bazarlara da elektrik enerjisi ilə çıxacağıq. Bunu nəzərə alaraq, hər bir yeni stansiyanın inşa olunması, qeyd etdiyim kimi, bizim ixrac imkanlarımızı da artırır.**

"Masdar" şirkəti bizim üçün dost ölkəni - Birləşmiş Ərəb Əmirliklərini təmsil edir. Bizim ikitərəfli münasibətlərimiz çox yüksək səviyyədədir. Həm siyasi, həm iqtisadi, həm də digər sahələrdə uğurla əməkdaşlıq edirik. Ticarət əlaqələrimiz artır, turizm sahəsində çox böyük imkanlar var və şadam ki, bu sahədə də artım göz qabağındadır. Bir sözlə, Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasında əlaqələrin böyük perspektivi var. Şadam ki, bərpaolunan enerji istehsalı sahəsində də əməkdaşlığa bu gün start verilir. Əslində, Azərbaycan Energetika Nazirliyi ilə "Masdar" şirkəti arasında icra müqaviləsi bir il bundan əvvəl imzalanmışdır. Bu müddət ərzində hazırlıq işləri gedirdi və bu gün biz artıq təməlqoyma mərasiminə toplaşmışıq.

**Bildirməliyəm ki, bu ilin əvvəlindən energetika sahəsində çox önəmli addımlar atılıbdır. Yanvar ayında bu sahədə məşhur olan, Səudiyyə Ərəbistanını təmsil edən "ACWA Power" şirkəti ilə 240 meqavat gücündə Külək Elektrik Stansiyasının təməli qoyuldu. Fevral ayında "Azərenerji" tərəfindən inşa edilmiş 385 meqavat gücündə elektrik stansiyasının açılışı oldu və bu gün 230 meqavat gücündə günəş elektrik stansiyasının təməli qoyulur. Yəni hələ 3 ay tamamlanmayıb ki, artıq 855 meqavat gücündə yeni generasiya gücləri yaradılır, artıq 385 meqavat gücündə yaradılıbdır. Əminəm ki, 2023-cü ildə əlavə güclər bizim ümumi sistemimizə daxil ediləcəkdir və bu, işin, sadəcə olaraq, başlanğıc hissəsidir. Çünki bərpaolunan enerji növlərinin inkişafı bizim üçün prioritet məsələdir. Biz uzun illər bu məsələnin həlli ilə bağlı çalışırıq və bu gün real nəticələr görürük. Bütövlükdə Azərbaycanda mövcud olan sabitlik, iqtisadi inkişaf, qonşu ölkələrlə münasibətlərimiz, nəqliyyat, kommunikasiyalar, elektrik xətləri nöqteyi-nəzərdən qonşu ölkələrlə sıx təmaslar unikal bir vəziyyət yaradır ki, Azərbaycan nəinki xam neft, neft məhsulları və təbii qaz, eyni zamanda, elektrik enerjisinin böyük istehsalçısı və ixracatçısı olacaqdır. Mən buna əminəm, biz artıq bu işin təzahürlərini görürük. Onu da nəzərə almalıyıq ki, qonşu ölkələrdə və Avropa qitəsində elektrik enerjisinə böyük ehtiyac vardır. Biz elektrik enerjisini yalnız ekoloji cəhətdən təmiz mənbələrdən istehsal edirik - təbii qaz, su, günəş və külək. Bir daha demək istəyirəm ki, Azərbaycanda bərpaolunan enerji növlərinin potensialı həddindən artıq böyükdür. Məhz buna görə dünyanın aparıcı enerji şirkətləri indi Azərbaycanla bu sahədə əməkdaşlıq etməyə çox maraqlıdırlar. Əminəm ki, biz yaxın gələcəkdə yeni layihələrin başlanmasına start verəcəyik.**

Böyük potensial işğaldan azad edilmiş ərazilərdədir. Artıq dəqiq hesablamalar aparılıb və günəş, külək enerji növlərinin istehsalı təxminən 9-10 min meqavata çata bilər. Artıq ilkin addımlar da atılır, bp şirkəti ilə generasiya gücü 200 meqavatdan çox olan günəş elektrik stansiyasının inşası ilə bağlı danışıqlar gedir. Ümid edirəm ki, bu danışıqlar da uğurla nəticələnəcək. Digər böyük şirkətlər bu bölgəyə maraq göstərirlər. Bildirməliyəm ki, işğal dövründə 30 il ərzində ermənilər və Ermənistan dövləti o vaxt işğal altında olan torpaqlarda bütün infrastrukturu, bütün binaları, tarixi, dini abidələrimizi dağıtmışlar, bunu təsdiqləyən bir çox sənədlər, video-foto məlumatlar vardır. O cümlədən Kəlbəcər və Laçın rayonlarında 30-dan çox su elektrik stansiyasını məhv etmişlər və biz artıq azad edilmiş torpaqlarda genişmiqyaslı işlərə başlayaraq, o cümlədən elektroenergetika sahəsinə böyük diqqət göstərmişik. Keçən il 4 su elektrik stansiyasını bərpa etmişik. Onların ümumi generasiya gücü 20 meqavatdır. Bu il isə 5 su elektrik stansiyasının yenidən qurulması planlaşdırılır və bu stansiyaların generasiya gücü 27 meqavat olacaqdır. Düzdür, digər stansiyalarla müqayisədə həcm o qədər də böyük deyil. Lakin bu stansiyaların ancaq Kəlbəcər və Laçın rayonlarında sayı 30-dan çox olacaqdır və bu, su elektrik stansiyalarıdır. Günəş və külək elektrik stansiyalarının yaradılması üçün, təbii ki, daha böyük potensial var. Yenə də demək istəyirəm ki, bütün infrastruktur yaradılıb, daxili xətlər müasirləşdirilib, bir çox yarımstansiyalar inşa olunub, o cümlədən azad edilmiş torpaqlarda cəmi bir il ərzində 7 yarımstansiya yaradılıbdır.



**Xarici bazarlar bizim hüdudlarımızın kənarındadır və Avropadadır. Yenə də deyirəm, böyük tələbat var. Daxili tələbat artmaqdadır. Müstəqillik dövründə Azərbaycan əhalisi 7 milyondan 10 milyona çatıbdır. Yəni bu, əlbəttə ki, böyük üstünlükdür. Eyni zamanda sənaye və iqtisadiyyatımız artır. Bu ilin iki ayında ümumi daxili məhsul 6,7 faiz, qeyri-neft sektoru 10,1 faiz, qeyri-neft sənaye istehsalı təxminən 21 faiz artmışdır. Bütün bunlar postpandemiya dövründə əldə edilmiş nailiyyətlərdir və onu göstərir ki, Azərbaycanda aparılan islahatlar, sənayeləşmə siyasəti, biznes mühitinin yaxşılaşdırılması və xarici sərmayənin cəlb edilməsi istiqamətində doğrudan da təqdirəlayiq addımlar atılır. Əlavə etsəm ki, Azərbaycan dünya miqyasında o ölkələrdəndir ki, ölkəmizdə xarici dövlət borcu çox aşağı səviyyədədir, cəmi 7,4 milyard dollardır. Əgər istəsək, biz bu borcu bir gün ərzində sıfırlaya bilərik. Əlbəttə ki, həm beynəlxalq maliyyə qurumları, həm böyük şirkətlər, investorlar Azərbaycana çox böyük maraqla yanaşırlar. Bizim siyasətimiz isə ölkəmizin bundan sonrakı sürətli inkişafını təmin etmək, əlbəttə ki, ilk növbədə, azad edilmiş torpaqları bərpa etmək, - bu, böyük ərazidir, 10 min kvadratkilometrdən çox bir ərazidir, - və eyni zamanda, ölkəmizin dayanıqlı inkişafını təmin etməkdir. Bu, aksiomadır ki, elektrik enerjisi olmadan heç bir ölkə inkişaf edə bilməz. Bu, birinci şərtdir, bu, əsas şərtdir. Xoşbəxtlikdən Azərbaycanda zəngin neft və qaz yataqları vardır və bu yataqların istismarı və işlənilməsi uğurla gedir. Müasir infrastruktur vardır - həm nəqliyyat, həm kommunikasiya, həm də elektrik xətləri ixrac bazarları ilə bizi birləşdirir. Güclü siyasi iradə vardır. Dünyanın, demək olar ki, əksər ölkələri ilə sıx tərəfdaşlıq əlaqələri vardır. Bir çox dostlarımız var, onlardan biri də Birləşmiş Ərəb Əmirlikləridir. Mən bütün sərmayə maraqlarını, biznes maraqlarını nəzərə alaraq onu da bildirməliyəm ki, əgər iki ölkə arasında yaxın dostluq əlaqələri olmasaydı, yəqin ki, bu layihəni də biz görməzdik. Yəni,bütün bu amillərin vəhdəti çox gözəl bir imkan yaradır. Hesab edirəm ki, biz bu imkandan böyük səmərə ilə istifadə edirik və edəcəyik.**

Mən stansiyanın inşasına uğurlar arzulayıram, "Masdar" şirkətinə bizə etibar etdiyi və böyük sərmayəni qoymağa planlaşdırdığı üçün təşəkkürümü bildirmək istəyirəm. Əminəm ki, biz yaxın gələcəkdə Qaradağda bu stansiyanın açılışını birlikdə qeyd edəcəyik. Sağ olun.

X X X

**Sonra Birləşmiş Ərəb Əmirliklərinin energetika və infrastruktur naziri Suhail Al Mazrouei mərasimdə çıxış edərək dedi:**

- Zati-aliləri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev.

Zati-aliləri, xanımlar və cənablar.

Bu cür tarixi münasibətlə bu gün sizlərin qarşısında çıxış etməkdən şərəf və iftixar hissi duyuram. Zati-aliləri, düzgün qeyd etdiyiniz kimi, Birləşmiş Ərəb Əmirlikləri Azərbaycanın yaxın dostudur. Bizi dərin mədəni və iqtisadi əlaqələr, eləcə də təmiz enerjiyə əsaslanan dayanıqlı gələcəklə bağlı ümumi baxışlarımız bağlayır. Bu gün bu əlaqələr daha da güclənir. Zati-aliləri, sizin dəstəyiniz sayəsində biz Azərbaycanda ilk dəfə olan istehlak səviyyəsində günəş enerjisi layihəsinin təməlqoyma mərasimini qeyd edirik. Böyük şərəf hissi ilə bu layihədə sizinlə işləmək fürsəti bizə nəsib oldu. Mən bu mühüm layihənin gerçəkləşdirilməsinə yardım etmək məqsədilə "Masdar" şirkətinə və Birləşmiş Ərəb Əmirliyinə etimad göstərdiyinə görə Azərbaycan Prezidenti Zati-ailələri İlham Əliyevə, Azərbaycan dövlətinə şəxsən təşəkkürümü bildirmək istəyirəm.

**Bu gün "Masdar" 30-dan artıq ölkədə çalışır. Bizim məqsədimiz günəş enerjisi texnologiyalarını dünyanın bir çox ölkəsində tətbiq etməkdən ibarətdir. Mən, Azərbaycanda bərpaolunan enerji planlarını enerji siyasətinin mühüm hissəsinə çevirmək istəyinə görə, həmçinin qardaşım və yaxın dostum, Azərbaycanın energetika naziri Pərviz Şahbazova təşəkkürümü bildirmək istəyirəm.**

Zati-aliləri, Sizin rəhbərliyinizlə Azərbaycan 2030-cu ilə qədər bərpaolunan enerji sahəsində quraşdırılmış güclərin 30 faizə qədər artırılması kimi mühüm məqsədləri öz qarşısına qoyub. Biz Birləşmiş Ərəb Əmirlikləri də eyni məqsədi öz qarşımıza qoyuruq. Biz də 2030-cu ilə qədər həmin həcmin 30 faizə qədər artırılmasını planlaşdırırıq.

Birləşmiş Ərəb Əmirlikləri və "Masdar" şirkəti təmiz enerjiyə aid geniş gündəliyin icrasında Azərbaycana birbaşa xarici sərmayələrini və dəstəyini davam etdirməyi səmimiyyətlə arzulayırlar və biz tərəfdaşlığımızı daha da gücləndirmək üçün daha böyük imkanları araşdıracağıq.

**Mən şəxsən Azərbaycanın strateji mövqeyinə, Zati-aliləri, Sizin müəyyən etdiyiniz planlara görə təşəkkürümü bildirirəm. Azərbaycan nəinki Avropaya ənənəvi enerji daşıyıcılarını, o cümlədən təbii qazını, eləcə də təmiz enerji mənbələri və hidrogen sayəsində istehsal olunan enerjini gələcəkdə ixrac edəcək. Birgə işləyərək biz hamımız üçün daha yaşıl və dayanıqlı gələcəyi qurmaq məqsədilə təmiz enerji layihələrinin icrasını davam etdirəcəyik.**

Zati-aliləri, hörmətli qonaqlar, icazə verin, Birləşmiş Ərəb Əmirlikləri və onun rəhbərliyi adından sizə bu gün burada bizimlə olduğunuza və bunu sizinlə qeyd etmək fürsətinə görə bir daha səmimi təşəkkürümü bildirim.

Çox sağ olun.

X X X

**Mərasimdə Azərbaycanda bərpaolunan enerji sahəsində görülən işlər barədə videoçarx nümayiş etdirildi.**

X X X

**Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin energetika və infrastruktur naziri Suhail Al Mazrouei stansiyanın təməlini qoydular.**

# AHİK-in İcraiyyə Komitəsi:

## *Avropa Parlamentinin qətnaməsi heç kimdə şübhə doğurmayacaq qədər böhtandır*

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) İcraiyyə Komitəsi Avropa Parlamentinin 10 mart 2022-ci il tarixli Azərbaycanın işğaldan azad etdiyi ərazilərində "ermənilərə məxsus tarixi-mədəni abidələrin dağıdılması" ilə bağlı böhtan xarakterli qətnaməsinə dair bəyanat yayıb.**

**Bəyanatda deyilir:**

**"Avropa Parlamentinin Şərqi Zəngəzurda və Qarabağda "ermənilərə məxsus tarixi-mədəni abidələrin dağıdılması"ndan bəhs edən qətnaməsi acı gülüş və təəssüf doğurur. Heç bir araşdırma aparmadan, faktlara istinad etmədən, yalnız ermənilərin səsləndirdikləri sərsəm fikirlər əsasında hazırlanan bu yersiz qətnamə heç kimdə şübhə doğurmayacaq qədər böhtandır. İlk növbədə ona görə ki, ermənilər bu ərazilərə sonradan köçürüldükləri üçün onların burada nə qədim tarixi, nə də dərin mədəni irsi var. Ümumiyyətlə, dövlət yaradıb bu gün mövcud olduqları ərazilər də Azərbaycan torpaqlarıdır.**

Təkcə XX əsrdə ermənilərin etdiyi vəhşiliklərə və vandal aktlarına nəzər yetirmək kifayət edir ki, onların əsl xarakteri ortaya çıxsın. 1905-1907-ci və 1918-1920-ci illərdə on minlərlə dinc azərbaycanlı əhali soyqırımına məruz qalmış, yaşadıqları yerlərdən qovulmuş, yüzlərlə yaşayış məntəqəsi və tarixi-mədəni abidələr dağıdılıb yerlə-yeksan edilmişdir. Bu cür çirkin və dağıdıcı, nifaq dolu əməllərin sahibi olan ermənilər və onların iftiralarına boyun əyən beynəlxalq qurumlar tolerantlıq mərkəzi olan Azərbaycanı nədən ittiham etməyə çalışır!?

**1948-1953-cü illərdə 150 min, 1988-ci ildə isə daha 250 min azərbaycanlı Ermənistan ərazisindəki öz doğma yurdundan qovuldu. Onların mülkü və təsərrüfat obyektləri talan edildi, məscidlər, dini və tarixi abidələr məhv edildi, Ermənistan monoetnik dövlətə çevrildi. Görəsən, bütün bu baş verənlər Avropa Parlamentini niyə düşündürmür!? Nə üçün maraqlanmırlar ki, həmin ərazilərdən qovulmuş azərbaycanlıların sahib olduqları mədəni irsin taleyi necə oldu!? Təbii ki, bu, hamıya yaxşı məlum olan ikili standartların, qərəzli yanaşmanın təzahürüdür.**

Heç də uzağa getməyək, son 30 ilə nəzər salaq. Dünyanın, o cümlədən demokratik dəyərlərdən və insan haqlarından yerli-yersiz söz açan, bu anlayışları "patentləşdirən" Avropanın gözü qarşısında xarici havadarları tərəfindən silahlandırılan ermənilər Azərbaycan ərazisinin 20%-ni işğal etdilər, dinc əhali amansızcasına qətlə yetirildi, Xocalıda bəşəriyyətin ən qanlı hadisələrindən biri törədildi, bir milyondan çox azərbaycanlı 30 il ərzində qaçqın və məcburi köçkün həyatı sürməyə məcbur oldu.

**İşğal zamanı həmin ərazilərdə nəinki Azərbaycana məxsus məscidlər, dini, tarixi, mədəni abidələr, hətta iş o yerə çatdı ki, hər şeyi məhv etdikdən sonra təbiətə ziyan vurmağa, ekologiyanı korlamağa əl atdılar. Deyilənləri görmək üçün, sadəcə, işğaldan azad olunmuş ərazilərə səfər etmək kifayətdir. Hansı ki, bütün xarici jurnalistlər və diplomatlar üçün bu şərait yaradılıb və dəfələrlə səfərlər təşkil olunub. Bəs niyə Avropa Parlamenti fakt və sübut olmadığı halda "erməni mədəni irsinin məhv edilməsi"ndən bu qədər narahatdır, özü də Azərbaycan ərazisində, amma erməni vəhşiliyi ortada ola-ola bununla bağlı heç bir səs çıxarmır. Məgər görmürlərmi ki, vaxtilə böyük şəhərlər olmuş Ağdamda, Füzulidə, Cəbrayılda, ümumiyyətlə, canlı aləmin yaşaması üçün hər şey yox edilib.**

Ermənistan tərəfindən Azərbaycan torpaqları işğal edilərkən 13 dünya əhəmiyyətli (6 memarlıq və 7 arxeoloji), 292 ölkə əhəmiyyətli (119 memarlıq və 173 arxeoloji) və 330 yerli əhəmiyyətli (270 memarlıq, 22 arxeoloji, 23 bağ, park, monumental və xatirə abidələri, 15 dekorativ sənət nümunəsi) tarix və mədəniyyət abidələri olub. Bu gün onların hansı vəziyyətdə olduğu hamıya məlumdur. Həmçinin Şərqi Zəngəzurda və Qarabağda 67 müsəlman məscidinin (Şuşada 13, Ağdamda 5, Füzulidə 16, Zəngilanda 12, Cəbrayılda 5, Qubadlıda 8, Laçında 8) 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb. Ermənilər müsəlmanları təhqir etmək üçün məscidlərdə donuz, inək saxlayırdılar. Bunu təsdiq edən foto və videolar da mövcuddur.

**Ermənilər tərəfindən törədilən bütün bu vandallıq əməlləri hamılıqla qəbul edilmiş beynəlxalq hüququn prinsiplərinin, o cümlədən 1949-cu il Cenevrə konvensiyalarının, UNESCO-nun 1954 və 1970-ci il konvensiyalarının kobud şəkildə pozulmasıdır. Qeyd olunan faktları araşdırıb əldə etmək beynəlxalq qurumlar üçün o qədər də çətin deyil, nəinki erməni yalanlarına istinad edərək nüfuzuna xələl gətirəcək qətnamələr qəbul etmək.**

AHİK-in İcraiyyə Komitəsi olaraq bir daha bəyan edirik ki, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə yenilməz Azərbaycan Ordusu cəmi 44 gün ərzində Ermənistanın 30 illik işğalına son qoydu, işğalçı məqsədlərlə yaradılmış və bu çirkin missiyanı icra edən bir ordu məhv edildi. Beynəlxalq təşkilatların bərpa edə bilmədiyi beynəlxalq hüququn pozulmuş prinsiplərini Azərbaycan özü, təkbaşına həll etdi, dünyada sülh və təhlükəsizliyi daim təhdid edən separatizmə tutarlı və layiqli cavab verildi. Bir sözlə, ədalət zəfər çaldı.

**Həmin ərazilərə yenidən həyat qayıdır, 30 il dünyanın gözü qarşısında hüquqları tapdanmış bir milyondan çox məcburi köçkünün hüquqları bərpa edilir. Sadalananlar göstərir ki, Azərbaycanın bu tarixi missiyası beynəlxalq və regional təşkilatlar tərəfindən də alqışlanmalıdır.**

İşğala son qoyulduqdan dərhal sonra Azərbaycan həmin ərazilərində, erməni vandallarından fərqli olaraq, abadlıq-quruculuq işləri ilə məşğuldur. Bu çərçivədə dini, mədəni abidələrin, o cümlədən xristian irsinə mənsub abidələrin də bərpası istiqamətində fəal iş aparılır.

Təbii ki, Avropa Parlamenti bilməmiş deyil ki, Azərbaycan bütün mədəniyyətlərin, dinlərin, xalqların nümayəndələrinin birgə dinc şəkildə, mehriban və xoşbəxt yaşadığı multikultural və tolerant ölkədir. Mənşəyindən asılı olmayaraq, bütün mədəni irs dövlət səviyyəsində qorunur. Məhz buna görə də Avropa Parlamentini kiminsə yalan və böhtan xarakterli iddiaları səbəbindən əndişəyə düşməməyə, həqiqəti araşdırmağa və reallıqları dərk etməyə çağırırıq. Yalnız bu zaman Azərbaycanın sülh və təhlükəsizlik naminə bölgəyə gətirdiyi reallıqları aydın şəkildə görmək olar. Əks təqdirdə bu tipli qətnamələr sabitliyi poza, sülh istiqamətində aparılan işlərə xələl gətirə bilər.

**Bir daha Avropa Parlamentinin faktlardan uzaq, reallıqları əks etdirməyən, qeyri-obyektiv qətnaməsini şiddətlə qınayır, qurumu ədalətli mövqe tutmağa, buraxdığı səhvi aradan qaldırmağa və gələcəkdə belə hallara yol verməməyə çağırırıq".**

## AHİK-in ÜZV TƏŞKİLATLARI

1. Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası
2. "Xidmət-İş" Həmkarlar İttifaqları Federasiyası
3. "Kənd-Qida-İş" Həmkarlar İttifaqı Federasiyası
4. "Metal-iş" Həmkarlar İttifaqı Federasiyası
5. Aviasiya İşçiləri Həmkarlar İttifaqı
6. Avtomobil Nəqliyyatı və Yol Təsərrüfatı İşçiləri Həmkarlar İttifaqı
7. Bələdiyyə İşçiləri Həmkarlar İttifaqı
8. "Baku Stil Kompani" MMC İşçiləri Həmkarlar İttifaqı Birliyi
9. Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı
10. Dəmiryolçuların Müstəqil Həmkarlar İttifaqı
11. Dəniz Nəqliyyatı İşçiləri Həmkarlar İttifaqı
12. Elektroenergetika və Elektrotexnika Sənayesi İşçiləri Həmkarlar İttifaqı
13. Milli Elmlər Akademiyası Azad Həmkarlar İttifaqı
14. Fövqəladə Hallar Nazirliyi İşçiləri Həmkarlar İttifaqı
15. Gömrük İşçiləri Həmkarlar İttifaqı Birliyi
16. "İnşaat-İş" Həmkarlar İttifaqı
17. Müdafiə Sənayesi İşçiləri Həmkarlar İttifaqı
18. Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı
19. Metropoliten İşçiləri Həmkarlar İttifaqı
20. Neft və Qaz Sənayesi İşçiləri Həmkarlar İttifaqı
21. Nəqliyyat, Rabitə və Yüksək Texnologiya İşçiləri Həmkarlar İttifaqı
22. Sahibkarlıq, Özəl Elm və Yüngül Sənaye İşçiləri Həmkarlar İttifaqı
23. Səhiyyə İşçiləri Həmkarlar İttifaqı
24. Su Təsərrüfatı İşçiləri Həmkarlar İttifaqı
25. Təbii Sərvətlər və Ekologiya İşçiləri Həmkarlar İttifaqı
26. Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı
27. Yerli Sənaye və Kommunal-Məişət Müəssisələri İşçiləri Həmkarlar İttifaqı




# Azərbaycan həmkarlar ittifaqları YAŞAT Fonduna 658 870 manat vəsait köçürüb

**Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən olunmuş hərbi qulluqçulara və şəhid olmuş şəxslərin ailələrinin üzvlərinə işğaldan azad edilmiş ərazilərdə xidməti vəzifələrini yerinə yetirərkən, habelə hərbi əməliyyatlar bitdikdən sonra onun nəticələrinin aradan qaldırılmasında iştirak etməsi nəticəsində əlilliyi müəyyən olunmuş dövlət orqanlarının əməkdaşlarına və ya həlak olmuş əməkdaşların ailə üzvlərinə, həmçinin sosial müdafiə sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi üçün Azərbaycan Prezidentinin 2020-ci il 8 dekabr tarixli Fərmanı ilə "YAŞAT" Fondu yaradılıb.**

Böyük humanitar missiyanı özündə ehtiva edən Fonda könüllü ödəmələr dayanmadan davam edir. Bu, cəmiyyətimizdə yaşanan milli birliyin və həmrəyliyin göstəricisidir.

Azərbaycan həmkarlar ittifaqları da Fondun hesabına ianələr edirlər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) və üzv təşkilatları tərəfindən müxtəlif vaxtlarda Fondun hesabına 608 870 manat vəsait köçürülüb.

**Bu işlərin davamı olaraq AHİK-in İcraiyyə Komitəsinin 2022-ci il 4 mart tarixli qərarı ilə daha 50 000 manat vəsait Fondun hesabına köçürülüb.**

**AHİK-in Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi**

# Ürəkdolusu təbəssümlə, sevinclə yola saldılar




**Novruz bayramı ərəfəsində, ənənəsinə sadiq qalaraq, Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi xeyirxahlıq aksiyaları həyata keçirməkdədir. Belə aksiyalardan biri də ölkə ərazisindəki qaçqın və köçkün məktəblərinin şagirdlərinə bayram sovqatlarının paylanmasıdır. Respublika Komitəsi bu məqsədlə 10 min sovqat dəsti hazırlayıb Bakıdakı və bölgələrdəki məktəblərə göndərmişdir. Bölgələrdə hədiyyələrin paylanması rayon həmkarlar ittifaqı komitələrinə həvalə olunmuşdur. Alınan məlumatlara görə, artıq əksər məktəblərdə sovqatlar şagirdlərə çatdırılmışdır.**

Sovqatların bir qismi isə paytaxtdakı qaçqın məktəblərində paylanır. Martın 15-də Respublika Komitəsinin sədr müavini Mirzə Cəfərzadə və şöbə müdiri Rüstəm Nəzirov Qaradağ rayonunun Müşfiqabad qəsəbəsində yerləşən Füzuli rayon 50 saylı ümumtəhsil tam orta məktəbində olmuşlar. Sovqatlar müəllimlərin və sahə Hİ Qaradağ Rayon Komitəsinin sədri Əli Sadıqovun iştirakı ilə təntənəli şəkildə şagirdlərə təqdim olunmuşdur. Tədbirdə çıxış edən Mirzə Cəfərzadə müəllim kollektivini, şagirdləri qarşıdan gələn bayram münasibətilə AHİK sədri, millət vəkili Səttar Möhbalıyevin adından təbrik etmiş, onun xoş arzularını çatdırmışdır. Üzünü şagirdlərə tutaraq demişdir ki, siz xoşbəxt uşaqlarsınız. Siz valideynlərinizdən fərqli olaraq işğala məruz qalmış torpaqların xiffəti ilə deyil, azad edilmiş cənnət Qarabağın sevinci ilə yaşayan nəslin nümayəndələrisiniz. Siz 44 günlük Vətən müharibəsinin qürurunu yaşadınız. Atalarınızın, böyük qardaşlarınızın şücaətinin canlı şahidi oldunuz. Siz bu müharibədən çox şey öyrəndiniz. Bildiniz ki, qəhrəman xalqın övladlarısınız. Bildiniz ki, qəhrəmanlığın mayasında xalqın birliyi, həmrəyliyi durur. Xalq ölkə başçısı, Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşdi. Bu birlik dəmir yumruğa çevrildi. Həmin dəmir yumruğun qarşısında Ermənistanın ordusu, hakimiyyəti, havadarları tab gətirə bilmədilər, məğlubiyyətə uğradılar. Bu qələbə sizə, valideynlərinizə soykökünüzün, əcdadlarınızın minillər boyu yaşadığı doğma torpaqlara qayıdışına yol açdı. İnşallah, yaxın vaxtlarda siz təhsilinizi Qarabağda davam etdirəcəksiniz. Biz orada da bayram hədiyyələrimizlə sizin qonağınız olacağıq.

**Məktəbin direktoru Günel Kazımova bu diqqət və xeyirxah aksiyaya görə Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinə, onun sədri, millət vəkili Səttar Möhbalıyevə təşəkkürünü bildirdi. Dedi ki, hədiyyələr üçün sağ olun - amma, özünüz də gördünüz, hədiyyələrdən daha çox şagirdlərimizi təşkilatınızın sayğısı sevindirdi. Açığı, etiraf edim ki, respublikamızda xoş gündə, ağır məqamlarda xalqın yanında olan, xalqa, xüsusilə həssas təbəqələrə dəstək göstərən ictimai təşkilatlar arasında həmkarlar ittifaqı xüsusi yer tutur. Pandemiya dövründə, Vətən müharibəsi günlərində hansı köməkləri göstərdiyinizi xalq yaxşı bilir və qiymətləndirir. Elə bu məktəblilər də bunu öz timsallarında bildilər. Bu xeyirxahlıq, yəqin ki, onların yaddaşına əbədi həkk olundu. Böyüyəndə, əmək fəaliyyətinə başlayanda, çox güman ki, həmkarlar ittifaqının üzvü, təbliğatçıları və təəssübkeşləri olacaqlar.**

Gətirilmiş Novruz sovqatları tədbirin sonunda şagirdlərə verildi.

**Respublika Komitəsi də görüşdən hədiyyəsiz qayıtmadı: şagirdlər onları bir ürəkdolusu təbəssümlə, sevinclə yola saldılar.**

# AHİK 4 MİNDƏN ÇOX AİLƏYƏ BAYRAM SOVQATI GÖNDƏRİB



**Martın 16-da Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) tərəfindən Novruz bayramı münasibətilə respublikanın 76 rayonunda yaşayan 4 065 aztəminatlı ailəyə ərzaq dolu maşın karvanının yola salınması mərasimi keçirilib.**

Mərasimdə **AHİK sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev** jurnalistlərə müsahibəsində bildirib ki, Azərbaycan həmkarlar ittifaqları şəhid ailələrini, qaziləri, müharibə iştirakçılarını, bundan başqa, aztəminatlı ailələri hər zaman diqqətində saxlayır, imkanları daxilində heç bir köməyi onlardan əsirgəmir: "Biz istər Pandemiya, istərsə də Vətən müharibəsi və ondan sonrakı dövrlərdə həssas əhali qruplarına müxtəlif yardımlar etmişik. Bu işdə sahə həmkarlar ittifaqları da aktivdir. Bütün əlamətdar günlərdə onlara lazımi köməkliklər göstərilir. Biz həmçinin şəhid ailələrinin, onların övladlarının problemləri ilə daim maraqlanır, deməli olar ki, imkanımız daxilində onlara hər cür dəstəyi verməyə çalışırıq".



**Vətən müharibəsi dövründə ordumuza, əsgər və zabitlərimizə, eyni zamanda arxa cəbhədə fəaliyyət göstərən vətəndaşlarımıza maddi və mənəvi cəhətdən dəstək vermək üçün bir sıra tədbirlər həyata keçirilib. Vətən müharibəsi dövründə Silahlı Qüvvələrə Yardım Fondunun hesabına 1 milyon manatdan çox vəsait ianə edilib. AHİK və üzv təşkilatları tərəfindən müxtəlif vaxtlarda "Yaşat" Fondunun hesabına 658 870 manat vəsait köçürülüb.**

Otuz ilə yaxın bir müddət ərzində erməni qəsbkarları tərəfindən maddi və mənəvi sərvətləri talan edilmiş ərazilərimizin yenidən həyata qaytarılması ölkənin siyasi-iqtisadi suverenliyinin güclənməsinin mühüm dayaqlarından biridir. Ölkə başçısının Fərmanına əsasən yaradılmış Qarabağ Dirçəliş Fondunun dəstəyi ilə mərkəzləşdirilmiş qaydada görülən işlər nəticəsində ərazilərimiz tamamilə yenidən qurulur, infrastruktur yaradılır, müasir şəhər, qəsəbə və kəndlər salınır. Azərbaycan həmkarlar ittifaqları da Fondun hesabına 650 000 min manat köçürərək Şərqi Zəngəzurda və Qarabağda aparılan abadlıq-quruculuq işlərinə dəstəyini ifadə edir.

**2020-ci ildən etibarən isə ərzaq yardımlarından ibarət maşın karvanı respublikamızın bütün bölgələrinə yola salınır: "AHİK İcraiyyə Komitəsinin qərarları əsasında 2020-ci il aprelin 29-da respublikanın 76 şəhər və rayonunda yaşayan 3 900, 2021-ci il martın 17-də yenə həmin sayda - 76 şəhər və rayonda yaşayan 3 900, ötən il mayın 8-də 76 şəhər və rayonu əhatə edən 4 000 və Naxçıvan Muxtar Respublikasında 1000 şəhid və qazi ailələrinə, pandemiyadan zərərçəkənlərə, aztəminatlı ailələrə sovqatlar paylanılmışdır".**

S.Möhbalıyev bildirib ki, indiki bu bayram sovqatı da bu təşəbbüsümüzün davamıdır: "AHİK İcraiyyə Komitəsinin 2022-ci il 4 mart tarixli qərarına əsasən, Novruz bayramı münasibətilə bir neçə dəqiqədən sonra respublikanın 76 rayonunda yaşayan 4 065 aztəminatlı ailəyə ərzaq dolu maşın karvanı yola salınacaq. Bundan başqa, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasına bu məqsəd üçün 50 000 manat məbləğində vəsait köçürülüb. Eyni zamanda yalnız AHİK tərəfindən deyil, həm də sahə həmkarlar ittifaqları, yerlərdə fəaliyyət göstərən ilk həmkarlar ittifaqı təşkilatları tərəfindən aztəminatlı ailələrə ərzaq yardımı göstərilir. Ümumiyyətlə, Azərbaycan həmkarlar ittifaqları pandemiya başlayandan bəri bu kimi tədbirlərə 20 milyon manatdan artıq vəsait sərf edib".



**Millət vəkili deyib ki, AHİK hər zaman şəhid ailələrini, qaziləri və müharibə veteranlarını diqqətdə saxlayır, onların problemlərinə həssaslıqla yanaşır, müəyyən köməkliyin göstərilməsinə çalışır. Vətən müharibəsi iştirakçıları, qazilər və şəhid ailəsi üzvləri sağlamlıqlarının bərpa olunması məqsədilə, istəklərinə uyğun olaraq, sanatoriya-kurort yollayışları ilə təmin olunurlar.**

Bundan başqa, əmək pensiyaçılarının, yaşlı insanların müalicə və istirahətinin səmərəli təşkil olunması məqsədilə bir sıra addımlar atılır. Onlara sanatoriya-kurort məkəzlərinə yollayışlar verilir. Deməli olar ki, hər il 100 mindən artıq insan yollayışlarla təmin edilərək sanatoriya və istirahət mərkəzlərində dincəlib, öz ailələri ilə birlikdə asudə vaxtlarını səmərəli keçirib.

**S.Möhbalıyev qeyd edib ki, şəhid övladları da həmkarlar ittifaqları tərəfindən himayəyə götürülür: "Biz indiyə kimi 172 şəhidin 286 övladını himayəyə götürmüşük. Onların hər birinin hesabına 18 yaşına qədər hər ay 150 manat məbləğində pul vəsaiti köçürülür. Bundan başqa, şəhid ailələrinin bizə müraciətindən asılı olaraq, onların evlərinin təmiri, mebel və digər əşyaların alınması üçün də köməklik göstərilir. Həmçinin bayram günlərində şəhid ailələrinə baş çəkilir, bayramlarını təbrik edirik, onlara bayram sovqatları və maddi yardım göstərilir. Onların qaldırdığı məsələləri imkanımız daxilində həll etməyə çalışırıq".**



AHİK sədri bildirib ki, hər bir vətəndaşın qayğısına qalmaq, qarşılaşdıqları problemləri aradan qaldırmaq, xüsusən şəhid ailələrinə və qazilərə, müharibə iştirakçılarına, aztəminatlı ailələrə diqqət göstərmək, onlara maddi və mənəvi dəstək olmaq dövlətimizin başçısı cənab İlham Əliyevin daxili siyasət kursunun ana xəttini təşkil edir. Bu məqsədlə ölkəmizdə müxtəlif layihələr icra olunur, vətəndaş rifahının təminatı, həssas əhali qruplarının sosial müdafiəsinin gücləndirilməsi istiqamətində çox mühüm işlər görülür. Dövlət qurumları ilə yanaşı, ölkəmizin aparıcı ictimai təşkilatları da bu tipli humanist layihələrə dəstək verir, həmin kateqoriyadan olan insanlara qayğı göstərilir.

**Bu istiqamətdə Heydər Əliyev Fondunun bütün fəaliyyəti bir nümunədir. Fondun prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə aztəminatlı ailələrə, xüsusi qayğıya ehtiyacı olan şəxslərə hər zaman, o cümlədən bayramlarda və dövlətimiz üçün əlamətdar günlərdə sovqatlar, hədiyyələr göndərilir, sosial yardıma ehtiyacı olan minlərlə şəxs üçün bayram süfrələri təşkil olunur.**

Azərbaycan həmkarlar ittifaqları da qeyd olunan sosial layihələrin əsas iştirakçılarındandır.

Milli Məclisin deputatı deyib ki, həm pandemiya, həm də müharibə dövründə Azərbaycan iqtisadiyyatı nə qədər davamlı, dayanıqlı və möhkəm olduğunu göstərdi. Bu, ölkə başçısının müdrik təşəbbüsü, qabaqcadan düşünülmüş iqtisadi və siyasi fəaliyyəti sayəsində mümkün oldu. Son illər məlum səbəblərdən dünyada bütün sahələrdə ağır böhran yaşanmaqdadır və bu gün də onun fəsadları tam aradan qaldırılmayıb. Amma ölkəmizin sahib olduğu iqtisadi imkanlar, həmçinin dövlətimizin başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə görülən qabaqlayıcı kompleks tədbirlər sayəsində Azərbaycan bu sınaqlardan üzüağ çıxdı. Pandemiya zamanı bir sıra ölkələrdə kütləvi sayda iş yerləri bağlandı, işçilər ixtisar olundu. Dünyada baş verən hadisələrə baxmayaraq, ölkə Prezidentinin təşəbbüsü ilə respublikamızda əhalinin sağlamlığının qorunması, sosial rifahının yaxşılaşdırılması istiqamətində bir sıra mühüm tədbirlər planı həyata keçirildi. Hətta bəzi dövlətlərə yardımlar göstərildi. Ölkəmizdə pensiyalar, əməkhaqları artırıldı.

AHİK sədri diqqətə çatdırıb ki, işğaldan azad olunmuş ərazilərdə aparılan kompleks tədbirlər dövlətimizin maliyyə imkanları hesabına, heç bir kənar maliyyə dəstəyi olmadan, həyata keçirilir. Əsas istəyimiz bu işlərin tezliklə yekunlaşması və məcburi köçkünlərimizin öz yurd-yuvalarına qayıtmasıdır. Biz də üzərimizə düşən vəzifəni yerinə yetirməklə dövlətimizə bu sahədə köməklik göstərməyə çalışırıq.

**S.Möhbalıyev sonda Azərbaycan xalqını qarşıdan gələn Novruz bayramı münasibətilə təbrik edərək bu tipli humanist layihələrin bundan sonra da davam etdiriləcəyini söyləyib.**

**Azər MUSTAFAYEV**




# ŞƏHİD YADİGARININ İLK DOĞUM GÜNÜ...

**Torpaqlarımızın azadlığı uğrunda 44 gün davam edən savaşda mübarizə aparan igid qəhrəmanlarımızdan biri də şəhid Həsən Rahim oğlu Həsənov idi. O, 1990-cı il oktyabrın 1-də Şirvan şəhərində anadan olub. Şirvan şəhəri 2 nömrəli tam orta məktəbdə təhsil aldıqdan sonra 2008-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin Füzuli rayonunda yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə qulluq edib. 2017-ci ildən isə Abşeron rayonunda yerləşən hərbi hissədə müddətdən artıq hərbi xidmət qulluqçusu olaraq fəaliyyət göstərirdi. İkinci Qarabağ müharibəsi başlayan gündən Həsən Füzulinin azadlığı uğrunda gedən döyüşlərə qatılır. O, ölümün gözünə dik baxaraq Vətən uğrunda şəhadətə yüksəlməyi şərəf bilən igidlərimizdən olur. Oktyabrın 2-də Füzuli döyüşləri zamanı şəhidlik zirvəsinə ucalır.**





Çavuş Həsən Həsənovun 2 oğul övladı yadigar qaldı. Bir neçə gün öncə, mart ayının 11-də Həsənin sonbeşiyi olan, atasının üzünü heç görməyən körpə Həsəncamalın ilk ad günü idi.

***Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin məsul işçiləri İradə Paşayeva, Rahilə Babayeva, Dövlət Miqrasiya Xidməti Həmkarlar İttifaqı Komitəsinin sədri Qaratel Hacıyeva*** **şəhidimizin övladının bu özəl günündə yaxından iştirak etməyi özlərinə borc bildilər.**

Bizi Həsənin həyat yoldaşı Qəriyyə xanım qarşıladı. İki azyaşlı körpəni təkbaşına böyüdən Qəriyyə xanım gülərüz, cəfakeş, mətanətli görünür, eyni zamanda məğrur duruşu ilə sanki kövrək gözlərini pərdələyirdi: "Bu gün çox qürurluyam, çünki Həsənin adına layiq iki oğul böyüdürəm. Əminəm ki, onlar da ataları kimi vətənpərvər, qorxmaz, mərd olacaqlar". Qəriyyə xanım içindəki kədəri də gizlətmədi, köksünü ötürərək əlavə etdi: "Sözsüz ki, tam deyilik, Həsənsiz yarım qaldıq... Amma Vətən sağ olsun,- deyirəm. Çünki Həsən hər zaman torpaqların işğal altında olduğundan narahatlıq duyurdu. Onun Vətən, torpaq haqqında düşüncələri və söylədikləri bu gün mənə təsəlli olur".

Həsənin qardaşı Rəhim də 44 günlük müharibədə könüllü olaraq Xocavənd istiqamətində döyüşlərə qatılıb: "Həsən məndən yaşca böyükdür, müharibənin gedişində fürsət tapan kimi əlaqə yaradırdıq, mənə ürək-dirək verirdi, möhkəm ol, - deyirdi. Son telefon danışıqlarımızda hiss edirdim ki, şəhid olacağı ürəyinə damıb. O, buna hazır idi. Şəhidlik onun aləmində hər kəsə qismət olmayan Allahın lütfü idi".

Rəhim danışarkən səsi titrəyir, cümlələri ifadə etməkdə çətinlik çəkirdi. Həsən ürəkdolusu "ata" sözünü eşitmədi. Amma təsəllim odur ki, övladları fəxrlə "atam qəhrəmandır" deyəcəklər, həyatları boyu onunla qürur duyacaqlar.

**Həsəncamala ilk doğum günündə atasının yoxluğunu az da olsa hiss etdirməməyə çalışan, tədbir boyu onu qucaqlarından yerə qoymayan isə Həsənin döyüş yoldaşları idi. Onlar uşaqları öz övladları tək bağırlarına basırdılar. Görünürdü ki, ürəkləri də gözləri kimi doludur... "Həsən dostcanlı, fədakar, mərd və çox vətənpərvər yoldaş idi. Onun haqqında sadaladığım bu sözlərin hər birini o bizə əməli ilə nümayiş etdirib". Bu sözləri uzun müddət Həsənlə bir yerdə xidmət etmiş, həmçinin Vətən müharibəsində də çiyin-çiyinə vuruşan Nurlan Mehman oğlu Əlizadə dedi: "Bölmə komandiri yaralandıqdan sonra heyət Həsənin tabeliyinə keçdi. O, komandiri böyük məharətlə əvəz edirdi. Rabitəçi olmasına baxmayaraq, hər zaman ön sıralarda vuruşurdu. Özü şəhid olan gün neytral zonada 60 nəfərə yaxın döyüş yoldaşının həyatını xilas etdi. Ən sonda özü həmin zonadan çıxmaq istəyərkən snayper gülləsinə tuş gəldi...**

"Həsən döyüş başlayan gündən cəsurluğu ilə hər kəsə nümunə olurdu. Elə bir heyət üzvü, döyüş yoldaşı yox idi ki, Həsənin xətrini çox istəməsin". Bunu isə onun döyüş yoldaşlarından Allahşükür Simran oğlu Qasımov bildirdi. Dedi ki, onun vurulduğunu görən döyüş yoldaşımız Muxtar Qasımlı heç tərəddüd etmədən Həsənə tərəf qaçdı. Onun cansız bədənini ordan çıxartmaq istədi. Lakin Həsənin yanına çatan kimi onu da vurdular, Muxtar da Həsənlə bərabər eyni yerdə şəhid oldu"...

Biz də bu gün çalışırıq şəhid qardaşlarımızın ailələrinin hər işlərində yanlarında olaq, dəstəyimizi, köməyimizi əsirgəməyək. Həsənin bizə iki övladı yadigar qaldı. İnanıram ki, onlar da ataları kimi mərd, cəsur, fəxrimiz olacaqlar.



***Tədbirdə Rahilə xanım çıxış edərək AHİK sədri, millət vəkili Səttar Möhbalıyevin və sahə Hİ Respublika Komitəsinin rəhbərliyinin təbriklərini çatdırdı. Sonra həmkarlar ittifaqlarının şəhid olmuş qəhrəman oğullarımızın ailələrinə, qazilərə, müharibə iştirakçılarına göstərdiyi diqqət və qayğıdan danışdı. Həmçinin Respublika Komitəsinin, himayəyə götürdüyü 111 şəhid ailəsinin övladları kimi, şəhid Həsənin də övladlarına hər zaman lazımi dəstək olacağını vurğuladı.***

**Əsli TELMANQIZI**

# İşdə uğurların əsasında vətənpərvərlik və peşəkarlıq durur

**"Pandemiya və 44 günlük Vətən müharibəsi dövründə belə, Azərbaycan dəmiryolçuları iş ahənginin pozulmasına imkan vermədilər. Ölkənin nəqliyyat sisteminin adi qaydada işləməsini təmin etdilər. Bu, əlbəttə, dəmiryolçularımızın peşəkarlığı, vətənpərvərliyi sayəsində mümkün oldu. Dövlətimiz, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti, Dəmiryolçuların Müstəqil Həmkarlar İttifaqı Respublika Komitəsi fədakar işçilərimizin ən yaxşılarının əməyini qiymətləndirməklə istehsalat göstəricilərinin daha da yüksəldilməsini stimullaşdırır. Bu gün biz bu ənənəyə sadiq qalaraq ötən il istehsalatda fərqlənmiş, göstərdiyi nəticələrlə kollektivdə nümunəyə çevrilmiş bir qrup dəmiryolçunu mükafatlandırmaq üçün toplaşmışıq. Mən həmkarlar ittifaqı əməkdaşları və öz adımdan mükafata layiq görülən dəmiryolçuları təbrik edirəm".**



Bu sözləri Novruz bayramı ərəfəsində, 2021-ci ildə ayrı-ayrı nominasiyalar üzrə keçirilmiş müsabiqənin qaliblərinin mükafatlandırılması mərasimində sahə Hİ Respublika Komitəsinin sədri Fəzail Bağırov söylədi.

Çıxışında Vətən müharibəsində ordumuzun, xalqımızın, o cümlədən dəmiryolçuların birliyindən, fədakarlığından da söz açdı: "Bu birliyin, fədakarlığın banisi, ilhamçısı ölkə başçısı, Ali Baş Komandan cənab İlham Əliyevdir", - dedi. Biz Ukraynada gedən müharibəni izlədikcə İlham Əliyevin Ali Baş Komandan, dövlət başçısı kimi əvəzsiz olduğunu bir daha görürük, təsdiqləyirik. O, Azərbaycanın nəhəng dövlətlərin poliqonuna çevrilməsinə imkan vermədi. Onları neytrallaşdırmağı, Ermənistanı, necə deyərlər, diz çökdürməyi bacardı.

İndi əsas diqqət Qarabağda quruculuq işlərinə yönəldilib. Sürətlə, keyfiyyətlə aparılan quruculuq, bərpa işlərində dəmiryolçular da coşqu ilə iştirak edirlər.

F.Bağırov dedi ki bir neçə gündən sonra min illərdən bəri xalqımızın yaşatdığı, zaman-zaman üzləşdiyi qadağalardan, digər təsirlərdən qoruyub indiki nəslə çatdırdığı Novruz bayramını təntənə ilə qeyd edəcəyik. Sizi, sizin timsalınızda xalqımızı təbrik edirəm, süfrələrimiz ruzi-bərəkətli olsun.

**Sonra mükafatlar təqdim olundu. Məlumat üçün deyək ki, 17 nəfər "Əla yol işçisi - ilin ən yaxşı mütəxəssisi", 10 nəfəri isə "İlin qabaqcıl maşinisti" fəxri adlarına layiq görülmüşdü.**

# Qarabağda külək və günəş enerjisi stansiyalarının inşası

**Vergi Məcəlləsinə energetika-sənaye sektorlarında vergi güzəştlərinin tətbiqinə dair edilmiş dəyişikliklər bu sahəyə investorların marağını da artırıb. Son aylarda Azərbaycanın energetika sektorunda xarici investorların iri sərmayə layihələri ilə çıxış etməsi bunun göstəricilərindən biri hesab edilə bilər. Məlumdur ki, bərpa olunan enerji mənbələrinin istehsalı məqsədilə investisiya layihələrinin həyata keçirilməsində bir sıra güzəşt və stimullar, o cümlədən də vergi güzəştləri nəzərdə tutulub. Bu iqtisadi siyasət həqiqətən də öz müsbət nəticələrini verməkdədir. Bunun nəticəsidir ki, Azərbaycanda 2022-ci ilin ötən 3 ayı ərzində dünyanın ən nəhəng infrastruktur şirkətlərindən olan Səudiyyə Ərəbistanının "ACWA Power" və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətləri ilə energetika sektorunda 2 iri sərmayə layihəsinə start verilib. Fevral ayında Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti tərəfindən Azərbaycanda 240 MVt gücündə "Xızı-Abşeron" Külək Elektrik stansiyasının, martın 15-də isə Qaradağda Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin Günəş Elektrik Stansiyasının təməli qoyulubdur.**



Məsələ ondadır ki, hər iki şirkət alternativ və ekoloji cəhətdən təmiz enerji mənbələrinin istehslında bu layihələrlə kifayətlənmək niyyətində deyil və işğaldan azad edilmiş ərazilərdə daha böyük sərmayə layihələrinin həyata keçirilməsini nəzərdə tutub. Məlum olduğu kimi, dövlət başçısının 2021-ci il 3 mart tarixli "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "Yaşıl Enerji Zonası"nın yaradılması ilə bağlı tədbirlər haqqında" Sərəncamına əsasən, Qarabağ və Şərqi-Zəngəzurda günəş, külək, termal, geotermal və digər bərpa olunan enerji potensialının istismarı və xarici şirkətlərin bu ərazilərə cəlb edilməsi üçün əhatəli güzəşt və müxtəlif stimulların verilməsi nəzərdə tutulub. Həmin ərazilərdə investisiyaların təşviqi mexanizmlərinin təkmilləşdirilməsi, istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlar üçün xammal və materialların idxalı ilə bağlı gömrük və vergi güzəştlərinin müəyyən edilməsindən ötrü hökumətə müvafiq tapşırıqlar verilib və bu imkanlar xarici investorlara təqdim edilib. Son bir il ərzində Yaponiya, Cənubi Koreya, İtaliya, Türkiyə, o cümlədən Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirlikləri ilə bu sahədə əməkdaşlıq imkanları müzakirə edilib.

"Yaşıl Enerji Zonası"nın yaradılması ilə əlaqədar hazırlanmış Konsepsiyaya uyğun olaraq işğaldan azad olunmuş bölgələrdə günəş, külək, biokütlə, termal, geotermal və digər bərpa olunan enerji mənbələrinin istehsalı məqsədilə bölgədə külək və günəş enerji stansiyalarının, həmçinin su anbarlarında, göllərdə, kiçik çaylarda su elektrik stansiyalarının tikilməsi nəzərdə tutulur. Konsepsiya sənədinə əsasən, 6 rayonda (Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər) günəş elektrik stansiyalarının tikintisi üçün, ümumi sahəsi 14 min 427 hektar və güc qoyuluşu potensialı 7214 meqavat olan, 8 perspektiv ərazi müəyyən edilib. Hər bir ərazi üzrə düşən günəş radiasiyasının miqdarına görə gözlənilən enerji istehsalı müəyyənləşdirilib. İşğaldan azad edilmiş ərazilərdə günəş enerjisi layihələri həyata keçirmək üçün əlverişli potensial var. Beləliklə, mövcud potensial xarici investorlara təqdim edilib və onlara əlverişli sərmayə imkanları, vergi, gömrük güzəştləri müqabilində Qarabağ və Şərqi-Zəngəzurda "Yaşıl Enerji Zonası" yaratmaq təklif olunub. Onların sırasında Səudiyyə Ərəbistanının "ACWA Power" və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətləri cəlbedici şərtlərə uyğun olaraq növbəti mərhələdə bu ərazilərdə külək və günəş enerjisi stansiyaları inşa etməyi məqsəduyğun hesab etdiyini açıqlayıb. Səudiyyə Ərəbistanı Krallığının investisiya naziri Xalid bin Əbdüləziz Əl-Falih və Azərbaycanın maliyyə naziri Samir Şərifov arasında bir müddət əvvəl keçirilən görüş zamanı Səudiyyə şirkətlərini azad olunmuş ərazilərin bərpasında və yenidən qurulmasında iştirakı, o cümlədən "ACWA Power" şirkətinin enerji sahəsinə sərmayə yatırmaq perspektivləri barədə faydalı fikir mübadiləsi aparılıb. Qlobal miqyasda bərpaolunan enerji sahəsində, 8.000 meqavat olmaqla, elektrik enerjisi sahəsində ümumilikdə 30 min 200 meqavat qoyuluş gücünə bərabər istehsal və 45 mlrd. ABŞ dolları məbləğində investisiya portfelinə malik olan bu şirkətin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində yaşıl enerji layihələrində əsas investorlardan biri olacağı istisna deyil. Həmçinin, bərpa olunan enerji sahəsi üzrə hazırda ümumi qoyuluş gücü 4.000 meqavat həcmində istehsal portfelinə sahib olmaqla bu sahəyə indiyədək 8,5 mlrd. dollar məbləğində investisiya qoyuluşu həyata keçirmiş BƏƏ-nin "Masdar" şirkəti ilk sırada yer almaq niyyətindədir. Martın 15-də Azərbaycan hökuməti ilə Anlaşma Memorandumu imzalayan "Masdar" şirkəti 3 il ərzində Qarabağda və Şərqi Zəngəzurda bərpa olunan və təmiz enerji sahəsində bir neçə layihə həyata keçirəcəkdir. Şirkət bu bölgədə ilk layihəsini Kəlbəcər-Laçın zonasında, gücü 100 MVt-dan çox olan, külək elektrik stansiyasının tikintisi ilə başlayacaq, sonrakı layihələrin gücü isə Qarabağda 200 MVt gücündə günəş stansiyasının tikintisidir.

**Beləliklə, Azərbaycan hökuməti bütün iqtisadi imkanları və vergi-gömrük güzəştlərini səfərbər edərək həm qlobal miqyasda ekoloji cəhətdən xüsusi üstünlüyə malik yaşıl enerji istehsalını artırır, ölkədə "yaşıl iqtisadiyyat" konsepsiyasının əsas hədəflərindən birinə çatmağı planlaşdırır, həm də ən strateji məqsədlərindən biri olan işğaldan azad edilmiş ərazilərini geniş xarici investisiya zonasına çevirir.**

**Elbrus CƏFƏROV**

# Azərbaycanın baş su “arteriyası” təhlükə altındadır

**Azərbaycanın baş su “arteriyası” adlanan Kür çayı bu gün təhlükəli vəziyyətdədir. Hazırda çayda suyun səviyyəsinin azalması böhran həddinə çatıb. Artıq Kür çayı Xəzər dənizinə deyil, əksinə, Xəzər dənizi Kürə doğru irəliləyir. Kürətrafı rayonlar susuzluqdan əziyyət çəkir. Hələ qış aylarında olduğumuzu, qarşıdan qızmar yay aylarının gəldiyini nəzərə alsaq, problemin daha da qorxunc vəziyyət alacağını təsəvvür etmək heç də çətin deyil.**



Azərbaycanın ən böyük çayı olan və su təchizatında ölkənin əsas su mənbəyi sayılan Kürün qurumasına səbəb nədir? Problemin daha da dərinləşməməsi və qarşısının alınması istiqamətində nə kimi addımlar atılır? Bu və bu kimi suallara cavab tapmaq üçün **Milli Məclisin Aqrar siyasət komitəsinin üzvü Azər Badamov və Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Milli Hidrometeorologiya Xidmətinin rəis müavini Rafiq Verdiyev** ilə əlaqə saxladıq.

**Millət vəkili** dedi ki, Kür çayı zəngin faunaya malikdir. Çayın məcrası Türkiyədən başlayır və bir neçə ölkənin ərazisindən keçir: “Təəssüf ki, Kürün keçdiyi ölkələrdə suyu kəskin çirkləndirirlər və bu da çayın faunasına öz mənfi təsirini göstərir. Suyun ağır metallarla və canlı orqanizmlərin həyatına təhlükə törədən maddələrlə çirkləndirilməsi nəticəsində son illər Kürdə balıqların nəsli kəsilməkdədir. Həm də ən böyük problem Kürün suyunun kəskin azalmasıdır. 30-40 il əvvəl Kür çayının yataq boyu su axınının eni 100-150 metrə yaxın olduğu halda, indi bəzi yerlərdə 5 metrə qədər azalmışdır. Çayda suyun azalması ekoloji fəlakətə gətirib çıxara bilər. Azalmaya isə əsasən obyektiv və subyektiv səbəblər təsir göstərir. Obyektiv səbəblər iqlimin quraq keçməsidir. Son illər Kürün formalaşdığı və keçdiyi ölkələrdə yağıntıların miqdarı çox azalmışdır. Qeyd edə bilərəm ki, qışın sərt keçdiyi bölgələrdə belə, demək olar ki, qar yağmır. Dağlarda qarın az yağması çayın dövri olaraq su ehtiyatını azaldır və çayın səviyyəsinin kəskin aşağı düşməsinə gətirib çıxarır. Digər bir səbəb isə, Kür çayının keçdiyi ölkələrdə kənd təsərrüfatı sahələrinin genişləndirilməsi ilə bağlıdır”.

**A.Badamov bildirdi ki, Kürdə suyun azalmasının qarşısının alınması üçün Küryanı ölkələr birgə tədbirlər planı həyata keçirməlidir. Bu tədbirlər planına kənd təsərrüfatı üçün istifadə olunan suyun daha qənaətcil işlədilməsi məsələsi də daxil edilməlidir. Yəni kənd təsərrüfatı sahəsinin suvarılması daha az su istifadə olunan innovativ suvarılmaya keçirilməlidir. Əgər Kürətrafı ölkələrin hamısı Kürdən götürülən suya qənaətlə yanaşarsa, çayda suyun kəskin azalmasının qarşısını müəyyən qədər almaq olar.**

**Rafiq Verdiyev** 90-cı illərlə müqayisədə son 30 ildə su ehtiyatlarımızın Kür hövzəsində və ölkəmizin digər çay hövzələrində 15 faizədək azaldığını dedi. Bildirdi ki, son bir neçə ildə qlobal iqlim dəyişmələrinin təsiri nəticəsində temperaturun 1,4 dərəcə selsi artması, yağıntıların isə azalması su resurslarımızın da azalmasına səbəb olmuşdur: “Çaylardan həddən artıq su götürülməsi, sudan səmərəsiz istifadə, suyun nəqli və istifadəsi zamanı itkilərin yüksək olması bu problemi daha da kəskinləşdirmişdir. Bu da Kür çayının aşağı hissəsində həm əhalinin su təchizatında, eyni zamanda istilik, su elektrik stansiya aqreqatlarının soyudulması məqsədilə suyun götürülməsində bəzi problemlər yaratmışdır. Bundan başqa, Kür çayının suyunun az olması çayın Xəzər dənizinə töküldüyü yerdə müəyyən ekoloji problemə səbəb olmuş və bu da onun keyfiyyətinin dəyişməsinə, duzluluğunun artmasına təsir etmişdir. Əgər əvvəllər yayda Kürün aşağı axınında 200-300 kubmetr su olurdusa, indi bu, 70 kubmetr saniyədir. Bu da Kür və Xəzərin səviyyəsinin mənfi 28,3 metr baltik sistemi səviyyəsi ilə üst-üstə düşməsinə gətirib çıxarır. Bundan başqa, cənub küləkləri zamanı dalğalar vasitəsilə duzlu suların Kür boyu hərəkət edərək Salyana qədər çatmasına, bəzi yerlərdə isə hətta duzluluğun 1 litrdə 10 qram olmasına səbəb olmuşdur. Adi halda isə bu, 1 litrdə 0,5, 0,7 qramdır. Bu da əhalinin su təchizatında ciddi problemlərə səbəb olur”.

**Rafiq müəllim problemin qarşının alınması üçün dövlət tərəfindən müvafiq işlərin həyata keçirildiyini qeyd etdi: “Ölkə Prezidentinin sərəncamı ilə yaradılan Dövlət Su Komissiyası məhz 2020-2022-ci illərə aid tədbirlər planı işləmişdir. Həmin tədbirlər planında Milli Su Strategiyasının qəbul edilməsi, hazırlanması və müvafiq tədbirlərin həyata keçirilməsi, eyni zamanda Kür çayının aşağı axında su probleminin həlli də nəzərdə tutulur. Bundan başqa, Kürün əvvəlki qollarının bərpası, çay üzərində müvafiq qurğular qurmaqla dənizdən dalğalanma zamanı duzlu suların daxil olmasının qarşısının alınması kimi məsələlər də öz əksini tapır. Artıq Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən bu sahədə müvafiq işlər həyata keçirilir. Belə ki, hər gün Kürün hidroloji monitorinqi aparılır, çayda duzluluq səviyyəsi, küləyin təsiri nəticəsində dalğalanma əlaqələri təhlil edilir”.**

**Aliyə SƏMƏDOVA**



**Novruz gəlir yurduma,**
**Hər tərəf gül-çiçəkdir.**
**Az sonra keçəl, kosa,**
**Meydana gələcəkdir.**

# Kimsəsizlərə kimsə olmaq təşəbbüsü



**Mart ayının 16-da Azərbaycan Metal İşçiləri Həmkarlar İttifaqı Federasiyası Bakı şəhərində yerləşən “Valideyn Himayəsindən Məhrum Olmuş Uşaqlara Dayaq” İctimai Birliyinə Novruz bayramı münasibətilə hədiyyələr göndərib.**

Federasiyanın prezidenti Bəkir Yusifov bildirdi ki, həmkarlar ittifaqları kimsəsizlərə kimsə olmağı həmişə özünə borc bilib. Biz yaxşı bilirik ki, hər bir uşaq cəmiyyətimizin gələcəyidir. Ona görə də onlara indidən qayğı, mənəvi və maddi dəstək lazımdır. Kollektivimiz bu aksiyanın həyata keçirilməsini təklif edəndə hamımız yekdilliklə lehinə səs verdik. Gələcəkdə də imkanımız daxilində ehtiyacı olan insanlara kömək göstərəcəyik.

**“Valideyn Himayəsindən Məhrum Olmuş Uşaqlara Dayaq” İctimai Birliyi fəaliyyətdə olduğu müddətdə valideynlərinin birindən və ya hər ikisindən məhrum olmuş, yoxsul ailələrdən olan uşaqların sosial, mədəni problemlərinin həllinə yardımçı olub, Vətənə layiqli övladlar yetişdirmək missiyasını qarşısına məqsəd qoyub.**




## Fiziki şəxsə xəsarət yetirilərkən və ya onun sağlamlığı pozulmaqla vurulmuş zərərin əvəzi necə ödənilir?

**Əvəz CAMALOV, Abşeron rayonu.**

- Mülki Məcəllənin 1118-ci maddəsinə əsasən, fiziki şəxsə xəsarət yetirilərkən və ya onun sağlamlığı başqa şəkildə pozularkən zərərçəkənin malik olduğu, yaxud yəqin ki, malik ola biləcəyi və itirdiyi qazancın (gəlirin), habelə sağlamlığının pozulması ilə bağlı əlavə çəkdiyi xərclərin, o cümlədən müalicəyə, əlavə qidalanmaya, dava-dərman alınmasına, protezləşdirməyə, başqasının qulluğuna, sanatoriya-kurort müalicəsinə, xüsusi nəqliyyat vasitələri əldə edilməsinə, başqa peşəyə hazırlanmaya çəkdiyi xərclərinin əvəzi ödənilir, bu şərtlə ki, zərərçəkənin həmin yardım və qulluq növlərinə möhtac olduğu və bunları pulsuz almaq hüququnun olmadığı müəyyənləşdirilsin.

İtirilmiş qazanc (gəlir) müəyyənləşdirilərkən zərərçəkənə xəsarət yetirilməsi və ya sağlamlığının başqa şəkildə pozulması ilə əlaqədar təyin edilmiş əlilliyə görə pensiya, eləcə də həm sağlamlığına zərər vurulanadək, həm də zərər vurulduqdan sonra təyin edilmiş digər pensiyalar, müavinətlər və digər bu cür ödənişlər nəzərə alınmır və zərərin əvəzinin ödənilməsi miqdarının azaldılmasına səbəb olmur (zərərin əvəzinin ödənilməsi hesabına daxil edilmir). Zərərçəkənin sağlamlığı pozulduqdan sonra əldə etdiyi qazanc (gəlir) da zərərin əvəzinin ödənilməsi hesabına daxil edilmir.

Məcəllənin həmin maddəsinə uyğun olaraq zərərçəkənə ödənilməli zərərin əvəzinin həcmi və miqdarı qanunla və ya müqavilə ilə artırıla bilər.

## Etibarnaməyə hansı hallarda xitam verilir?

**Nazilə VƏLİYEVA, Şirvan şəhəri.**

- Mülki Məcəllənin 365-ci maddəsinə əsasən, etibarnamənin qüvvəsinə aşağıdakılar nəticəsində xitam verilir:

- etibarnamənin müddətinin bitməsi;
- etibarnamədə nəzərdə tutulan hərəkətlərin həyata keçirilməsi;
- etibarnaməni vermiş şəxs tərəfindən onun ləğv edilməsi;
- etibarnamə verilmiş şəxsin imtinası;
- adından etibarnamə verilmiş hüquqi şəxsə xitam verilməsi;
- adına etibarnamə verilmiş hüquqi şəxsə xitam verilməsi;
- etibarnaməni vermiş fiziki şəxsin ölməsi, fəaliyyət qabiliyyəti olmayan, məhdud fəaliyyət qabiliyyətli və ya xəbərsiz itkin düşmüş sayılması;
- etibarnamə verilmiş fiziki şəxsin ölməsi, fəaliyyət qabiliyyəti olmayan, məhdud fəaliyyət qabiliyyətli və ya xəbərsiz itkin düşmüş sayılması.

Etibarnamə vermiş şəxs istənilən vaxt etibarnaməni və ya başqasına etibaretməni ləğv edə bilər, etibarnamə verilmiş şəxs isə istənilən vaxt ondan imtina edə bilər. Bu hüquqlardan imtinaya dair razılaşma əhəmiyyətsizdir.

## Yaşı 18-dən az olan işçilərə hansı normalar həddində ümumi çəkisi ağır olan əşyaların əl ilə qaldırılması və daşınması işlərinin görülməsi (xidmətlərin göstərilməsi) daxil edilə bilər?

**Kənan QASIMOV, Masallı rayonu.**

- Əmək Məcəlləsinin 251-ci maddəsi ilə yaşı 18-dən az olan işçi tərəfindən ağırlığın qaldırılmasında məhdudiyyət qoyulan işlər müəyyənləşdirilibdir. Həmin maddəyə əsasən, yaşı 18-dən az olan işçilərin qeyd edilən normalardan artıq ağır əşyaların qaldırılması və bir yerdən başqa yerə daşınması işlərinə cəlb edilməsi qadağandır.

- 16 yaşdan 18 yaşadək olan işçilərin əmək funksiyasına yalnız aşağıdakı normalar həddində ümumi çəkisi olan ağır əşyaların əl ilə qaldırılması və daşınması işlərinin görülməsi (xidmətlərin göstərilməsi) daxil edilə bilər:

a) kişilərin başqa işləri görməklə yanaşı, eyni zamanda ümumi çəkisi 15 kiloqramdan çox olmayan əşyaların əl ilə qaldırılaraq başqa yerə daşınması, habelə ümumi çəkisi 10 kiloqramdan çox olmayan əşyanın bir metr yarımdan artıq hündürlüyə qaldırılması;

b) qadınların başqa işləri görməklə yanaşı, eyni zamanda ümumi çəkisi 10 kiloqramdan çox olmayan əşyaların əl ilə qaldırılaraq başqa yerə daşınması, habelə ümumi çəkisi 5 kiloqramdan çox olmayan əşyanın bir metr yarımdan artıq hündürlüyə qaldırılması;

c) bütün iş günü (iş növbəsi) ərzində müntəzəm olaraq ümumi çəkisi 10 kiloqramdan çox olmayan əşyanın əl ilə qaldırılıb başqa yerə daşınması;

ç) 15 kiloqramdan artıq gücün sərf edilməsi tələb olunan yüklənmiş təkərli araba və ya hərəkət edən digər vasitələrlə əşyaların daşınması.

- 16 yaşadək qızlar yalnız onların razılığı ilə “a”, “b” və “c” bəndlərində nəzərdə tutulan normaların müvafiq olaraq 1/3 hissəsi həddində ağırlığı olan əşyaların qaldırılması və daşınması işlərinə cəlb oluna bilərlər.

- Yaşı 16-dan az olan qızların bütün iş günü ərzində müntəzəm olaraq yükqaldırma və daşınma işlərinə cəlb edilməsi qadağandır.

## Əmək pensiyasının hansı növləri var?

**Süreyya HƏSƏNLİ, Samux rayonu.**

- Əmək pensiyasının növləri və tərkibi “Əmək pensiyaları haqqında” qanunla müəyyən edilmişdi.

Qanunun 4-cü maddəsinə uyğun olaraq əmək pensiyasının aşağıdakı növləri müəyyən edilir:

- yaşa görə əmək pensiyası;
- əlilliyə görə əmək pensiyası;
- ailə başçısını itirməyə görə əmək pensiyası.

Yaşa görə əmək pensiyası, əlilliyə görə əmək pensiyası sığorta hissəsindən və yığım hissəsindən ibarətdir:

Ailə başçısını itirməyə görə əmək pensiyası isə təkcə sığorta hissəsindən ibarətdir.

## İşçi öz hüquqlarını qorumaq üçün hansı müddətdə məhkəməyə müraciət edə bilər?

**Arzu MƏMMƏDOVA, Bakı şəhəri.**

- İşçi hüququnun pozulduğunu aşkar etdiyi gündən etibarən 3 təqvim ayı ərzində müəssisə həmkarlar ittifaqının nəzdində yaradılmış fərdi əmək mübahisələrinə baxan orqana müraciət edə bilər.

Qalan bütün hallarda fərdi əmək mübahisəsinin həll edilməsi üçün işçi hüququnun pozulduğunu aşkar etdiyi gündən etibarən 1 təqvim ayı ərzində məhkəməyə müraciət edə bilər.

Hüququnun pozulmasının aşkar edildiyi gün işçiyə müvafiq əmrin, (sərəncamın, qərarın), əmək kitabçasının, haqq-hesab sənədlərinin (kitabçasının, vərəqəsinin, çekinin) verildiyi, həmçinin əmək müqaviləsinin bu Məcəllədə nəzərdə tutulmuş şərtlərinin işəgötürən tərəfindən müvafiq qaydada sənədləşdirilmədən bilə-bilə qəsdən pozulduğu gündür.

Pul və digər əmlak tələbləri ilə əlaqədar, həmçinin ziyan vurulmaqla bağlı yaranmış əmək mübahisələrinin həlli üçün işçi hüququnun pozulduğunu aşkar etdiyi gündən etibarən 1 il ərzində məhkəməyə müraciət edə bilər.

Onu da qeyd etmək lazımdır ki, işçilərin həyatına və sağlamlığına vurulmuş zərərin ödənilməsi haqqında tələblərə iddia müddəti şamil edilmir.

Məcəllə ilə işəgötürən üçün də müddət müəyyən edilib. Belə ki, işəgötürən Əmək Məcəlləsi ilə müəyyən edilmiş hallarda işçiyə qarşı iddia ərizəsi ilə məhkəməyə hüquqlarının və qanuni mənafelərinin pozulduğu gündən 1 təqvim ayı müddətində, ona maddi ziyan vurulması məsələləri ilə əlaqədar isə ziyanın vurulmasını aşkar etdiyi gündən 1 il müddətində müraciət edə bilər.

Qeyd edilən müddətlər üzrlü səbəblərdən - iddiaçının xəstələnməsi, ezamiyyətdə, yaşayış yerindən kənarda məzuniyyətdə olması, yaxın qohumunun ölməsi və digər obyektiv hallarla bağlı səbəblərdən ötürülərsə, fərdi əmək mübahisəsinə baxan orqan buraxılmış müddəti bərpa edərək mübahisəyə mahiyyəti üzrə baxa bilər.

Əmək Məcəlləsinin 296-cı maddəsinə əsasən, iddiaçının “yaxın qohumu” dedikdə, işçinin atası, anası, babası, nənəsi, əri (arvadı), uşaqları, bacıları, qardaşları, qudaları, ərinin (arvadının) valideynləri, qardaşları, bacıları başa düşülməlidir. İşçinin digər qohumlarının vəfatı ilə əlaqədar iddia müddətinin ötürülməsini hakim üzrlü hal hesab edə bilər.

**Sorğuları şərh etdi: AHİK-in Hüquq şöbəsi**



# Milyonlarla iş yeri məşğulluğun və layiqli işin təmin edilməsinə səbəb olacaq

**COVID-19 pandemiyası zamanı əmək bazarından məcburi şəkildə çıxarılan milyonlarla insanın əksəriyyətini qadınlar təşkil edib və onlar da təmənnasız baxıcı (qayğı) işlərinin əksəriyyətini yerinə yetirirlər.**

Beynəlxalq Əmək Təşkilatının (BƏT) “İş yerində qayğı” qiymətləndirməsinə görə, uşaq baxımı və uzunmüddətli qayğıya qlobal sərmayə 2030-cu ilə qədər 280 milyon, 2035-ci ilə qədər isə daha 19 milyon iş yerinin yaradılmasına imkan verəcək.

**Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının (BHİK) Baş katibi Şaran Barrou** deyib ki, bu 300 milyon iş yeri bizim 2030-cu ilə qədər 575 milyon iş yeri yaratmaq barədə qlobal çağırışımıza doğru uzun bir yol olacaq.

**Qayğı xidmətinə sərmayə qoymaq iqtisadi məna daşıyır. Ümumi daxili məhsulun (ÜDM) ümumi həcminin 4 faizini təşkil edən illik xərclər milyonlarla iş yeri yaradılmasına imkan verə bilər. Bu da daha yüksək gəlirlərdən və məşğulluqdan artacaq vergi gəlirləri hesabına qismən ödənilərək xərcləri ÜDM-in 3 faizinə yaxınlaşdırar.**

İşçi sıralarında qadınların sayının çoxalması onların məşğulluq nisbətini 78 faiz artıracaq və iş yerlərinin 84 faizi rəsmi olacaq.

Səhiyyəyə investisiyalar cəmiyyətlərimiz üçün əhəmiyyət kəsb edir. Çünki səhiyyə, təhsil və uşaqlara, əlillərə və yaşlı insanlara qayğı hazırda cəmiyyətlərimizin milli və ya qlobal sarsıntılara davamlılığının və BMT-nin Davamlı İnkişaf Məqsədlərinə nail olmaq üçün əsas kimi qəbul edilmişdir.

Qayğı xidməti sektorunda yaradılacaq milyonlarla iş yeri qadınların və işçi miqrantların məşğulluğunun və layiqli işin təmin edilməsinə, eləcə də qadınların iqtisadiyyatın daha geniş sahələrində iştirak etməsinə təsir göstərəcək.

**“Yeni Sosial Müqavilənin bir hissəsi olaraq 2030-cu ilə qədər qadınlar üçün tərəqqiyə başlamaq və bu iş yerlərini reallığa çevirmək üçün hər bir ölkədə iş və investisiya planlarına ehtiyacımız var. BƏT-in hesabatı nümayiş etdirir ki, iş yerləri, əməkhaqqı, sosial müdafiə, bütün işçilər üçün hüquqlar, bərabərlik və inklüzivlik-həmkarlar ittifaqlarının yeni sosial müqavilədə tələb etdiyi əsas müddəalar-bir-biri ilə əlaqəli, əldə edilə bilən və arzuolunandır”, - deyə Şaran Barrou əlavə edib.**

Hesabatın nəticələrinə əsasən, BHİK hökumətləri aşağıdakıları dəstəkləməklə ayrı-seçkilik praktikasına son qoymaq istiqamətində dərhal irəliləyiş əldə etməyə çağırır:

**Analığın mühafizəsi:** Bu, ictimai rifah və kollektiv məsuliyyətdir, lakin hesabatda göstərilir ki, təhlil edilən 185 ölkədə minimum analıq məzuniyyəti hüquqlarına nail olmaq üçün hazırkı templərlə 46 il vaxt lazımdır.

**Kişilərin qayğı göstərmə öhdəlikləri:** Potensial ataların təxminən üçdə- ikisi (1,26 milyard kişi) valideyn məzuniyyəti hüququ olmayan ölkələrdə yaşayır.

**Uşağın inkişafı və qadınların məşğulluğu üçün uşaq baxımı xidmətləri:** Bu, yalnız 21 ölkədə universal hüquqdur və hər on nəfərdən yalnız birinə pulsuz və ya əlverişli uşaq baxımı xidmətlərinə çıxış imkanı verir.

**Cəmiyyətlərdə yaşlı insanlar üçün əhəmiyyətli olan uzunmüddətli qayğı məzuniyyəti:** Dünyada hər on yetkin insandan yalnız ikisinin qanuni olaraq uzunmüddətli qayğı məzuniyyəti hüququ vardır və bu məzuniyyət yalnız 43 ölkədə ödənilir.

**Yaşlıların rifahı üçün uzunmüddətli qayğı xidmətləri:** İnsanların yalnız 16 faizi bu xidmətlərin universal və pulsuz olduğu ölkələrdə yaşayır.

İş yerlərində əməyin mühafizəsi və təhlükəsizlik texnikası.

Həmkarlar ittifaqları və işəgötürənlərlə dəyişən tibbi yardım sahəsində siyasət paketlərinin yaradılması üzrə dialoqda işləmək.

**BƏT-in hesablamalarına görə, 2021-ci ildə 2019-cu illə müqayisədə işlə təmin olunan qadınların sayı azalaraq 13 milyon olub, kişilərin məşğulluğu isə 2019-cu il səviyyəsinə yüksəlib.**

# Araşdırmada əməyin mühafizəsi və gigiyena riskləri nəzərdən keçirilib


European Agency for Safety and Health at Work
ISSN: 1831-9343
Human health and social work activities – evidence from the European Survey of Enterprises on New and Emerging Risks (ESENER)
Report
European Agency for Safety and Health at Work
Safety and health at work is everyone's concern. It's good for you. It's good for business.

**Avropa Əməyin Təhlükəsizliyi və Gigiyenası Agentliyi bu yaxınlarda bir araşdırma dərc edib. Araşdırmada Avropada insan sağlamlığı və sosial iş sektoru üçün əsas olan əməyin mühafizəsi və gigiyena riskləri nəzərdən keçirilib. Bu sektorun işçiləri sağlamlıqları və rifahları üçün geniş risklərə məruz qalırlar ki, bunlara COVID-19 ilə bağlı risklər, kimyəvi risklər, erqonomik risklər və psixososial risklər də daxil olmaqla, bioloji təsirlərə məruz qalmanın istənilən forması daxildir. Tədqiqatın məqsədi 2009, 2014 və 2019-cu illərdə aparılmış “ESENER” sorğularının üç dalğası əsasında əməyin mühafizəsi sahəsində işçilərin məruz qaldığı risklərin qiymətləndirməsidir. Yekun hesabata həmçinin Avropa İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqları Birliyi (EPSU) və ETUİ də daxil olmaqla, sektordan olan əmək mühafizəsi mütəxəssisləri və maraqlı tərəflərlə müsahibələr daxildir.**

Hesabatda nəzərdən keçirilən tədqiqat sualları əməyin mühafizəsi sahəsində əsas risk faktorlarının qiymətləndirilməsini, əməyin mühafizəsinin idarəsinin necə həyata keçirildiyini və işçilərin iştirakı da daxil olmaqla, sektorda əməyin mühafizəsinin idarə edilməsinə hansı aspektlərin təsir göstərdiyini qiymətləndirməyi əhatə edir. Suallara cavablar qarışıq metoddan istifadə etməklə verilir və nəticələr digər sektorlarla və müxtəlif Avropa ölkələri arasında müqayisə edilir.

**Araşdırmada aşağıdakı əsas nəticələr təqdim olunur:**

Xüsusilə COVID-19 pandemiyası ilə əlaqədar iş yerində psixososial risklərin tanınması psixi sağlamlıq problemləri ilə bağlı stiqmatizmin qəbul edilməsi və azaldılması mədəniyyətinin formalaşdırılması üçün vacibdir. Xəstəxanalar kimi təcili tibbi yardım müəssisələrinin bir çox işçiləri travma sonrası stresdən əziyyət çəkirlər. Bundan əlavə, tədqiqat göstərir ki, mexanizasiya və rəqəmsallaşdırma sektorda erqonomik risklərin azaldılmasında mühüm rol oynaya bilər, çünki yeni texniki imkanlar adətən işçi qüvvəsinə zərər verə biləcək vəzifələri yerinə yetirməyə imkan verir. Bu, iş yerində riskləri qiymətləndirmək, proqnozlaşdırmaq və qəzaların qarşısını almaq üçün istifadə edilə bilən daşınan qurğular və süni intellekt cihazları kimi rəqəmsal texnologiyaların tətbiqi və istifadəsini nəzərdə tutur. Bununla belə, nəzərə almaq lazımdır ki, rəqəmsallaşma vasitələri stresi artırmağa deyil, azaltmağa kömək etməlidir.

**Tədqiqat həmçinin əməyin mühafizəsi sahəsində risklərin azaldılması üçün bir sıra strategiyaların artıq mövcud olduğunu göstərir. Bu çərçivə COVID-19 ilə əlaqəli psixososial risklərə cavab vermək məqsədilə tədbirlərə əlavə dəstək vermək üçün istifadə edilə bilər. Bu, təlimin və məlumatlılığın artırılmasının iş yerində əməyin mühafizəsi sahəsində risklərin azaldılması üçün ən mühüm vasitə olduğunu göstərir.**

Bu, evdən kənarda xəstəyə qayğı kimi az nəzarət edilən iş şəraiti üçün xüsusilə əhəmiyyətli ola bilər. Tədqiqat göstərir ki, sektor həmçinin əməyin mühafizəsi məsələlərinin müzakirəsinin öhdəsindən yaxşı gəlir ki, bu da sektorda və müxtəlif sahələrdəki qabaqcıl təcrübə mübadiləsi səyləri ilə birlikdə risklərin qiymətləndirilməsinin yaxşılaşdırılması və əməyin mühafizəsi ilə bağlı məlumatlılığın artırılması üçün daim əsas olmalıdır. Bundan başqa, işçilərin və əməkdaşların əməyin mühafizəsinin idarə edilməsində iştirakı bu sektorda inkişaf etdirilməli olan risklərin azaldılması üçün üstünlükdür.

**Nəhayət, tədqiqat səhiyyə və sosial iş sektorunun COVID-19 pandemiyasından çox əziyyət çəkdiyini vurğulayır. Xüsusilə xəstəxana sektoru ciddi şəkildə zərər gördü. Buna baxmayaraq, yaranmış vəziyyətdən sektorda əməyin mühafizəsinin yaxşılaşdırılması üçün istifadə etmək olardı, çünki sektor və ictimai səhiyyə siyasəti arasında əlaqələr möhkəmlənmişdi. Beləliklə, tədqiqat EPSU-nun səhiyyə və sosial iş sektorunda əməyin mühafizəsinin fundamental yaxşılaşdırılması üçün kadr çatışmazlığı problemini həll etmək lazım olduğunu təsdiqləyib.**

# Aİ-nin pandemiyaya qarşı iqtisadi reaksiyası

**Vətəndaşların əksəriyyəti hesab edir ki, pandemiya zamanı Avropa İttifaqının (Aİ) sərt qənaət qaydalarına ziddiyyəti daha çox iş yeri yaratmaq və iqlim dəyişikliyi ilə mübarizə aparmaq üçün daimi olmalıdır. Bunu yeni sorğu da göstərir.**




COVID-19 başlayanda ölkələrə səhiyyə və iş yerlərinə sərmayə qoymağa icazə verilməsi üçün Avropa İttifaqının iqtisadi qaydalarının mərkəzi hissəsi dayandırılmalı idi. Beş üzv ölkədə 5 min insan arasında keçirilən sorğuda iştirak edənlərin 58 faizi düşünür ki, üzv dövlətlər borc almaq üçün daha çox çeviklik göstərməli idi.

Eynilə 59 faiz hökumətlərə dövlət xidmətlərinin yaxşılaşdırılması məqsədilə xərcləri artırmağa imkan vermək üçün Aİ-nin maliyyə qaydalarının dəyişdirilməsi ilə razılaşır. 53 faiz isə hökumətlərə yaşıl infrastruktura və iqlim dəyişikliyi innovasiyasına xərcləri artırmağa imkan verən qaydalara düzəliş edilməsinə etiraz etmir.

**Daha çox respondent (64%) əgər Aİ hökumətləri növbəti beş il ərzində borclarını azaltmağa məcbur etməyə çalışarsa, sərt iqtisadiyyatın potensial nəticələrindən narahatdır.**

**Almaniya, Fransa, İtaliya, İrlandiya və Danimarkada aparılan bir araşdırma aşağıdakıları göstərib:**

-Ciddi maliyyə qaydalarının ən qızğın müdafiəçilərindən biri olan Almaniyada yalnız 19 faiz Aİ-nin iqtisadi qaydalarının iqlim dəyişikliyinə qarşı mübarizə xərclərini artırmağa imkan vermək üçün dəyişdirilməsinə razılıq vermədi.

-Aİ-nin “İqtisadi dördlüyü” ndən biri olan Danimarkada yalnız 16 faiz Aİ-nin dövlət borclarını məhdudlaşdıran qaydalarının düzəlişlər edilməsi ilə razılaşmır ki, ölkələr iqlim dəyişikliyinə qarşı mübarizə üçün lazım olan xərc səviyyəsinə çata bilsinlər.

-Prezident E.Makronun Aİ-nin iqtisadi qaydalarının dəyişdirilməsinin tərəfdarı olduğu Fransada 61 faiz pandemiyadan sonra bərpanı asanlaşdırmaq üçün qaydaların çevik qalması ilə razılaşır.

-Üzv dövlətlərin növbəti 5 il ərzində borclarını azaltmağa məcbur olacağı təqdirdə, 2008-ci il bank böhranından bəri qənaət tədbirlərindən ən çox zərər çəkən İtaliya (78%) və İrlandiyada (74%) əlavə qənaət tədbirlərindən daha çox narahat olan vətəndaşlar var.

30 il əvvəl Maastrixt Müqaviləsinə əsasən yaradılmış Aİ-nin xərc qaydaları üzv dövlətlərin büdcə kəsirini ÜDM-in 3%-dən az, dövlət borcu isə ÜDM-in 60%-i ilə məhdudlaşır.

**Avropa Həmkarlar İttifaqları Konfederasiyası və onun tabeliyində olan milli həmkarlar ittifaqları bu gün Aİ-nin iqtisadi qaydalarında daimi islahatların aparılmasına təkan kimi “Yaşıl, ədalətli və demokratik Avropa iqtisadiyyatı” üçün manifest təqdim edən təşkilatlar koalisiyasının bir hissəsidir.**

**Avropa Həmkarlar İttifaqları Konfederasiyasının katibi Liyna Karr** deyib ki, Aİ-nin pandemiyaya qarşı iqtisadi reaksiyası milyonlarla iş yerini xilas etdi və tibb işçilərinin insanların həyatını qurtarmağa davam etməsinə rəvac verdi. Bu, 2008-ci ildən sonra tətbiq edilən və səhiyyə, sosial təminat sistemlərimizi pandemiyaya tamamilə hazır olmayan dağıdıcı qənaət tədbirləri ilə tamamilə ziddiyyət təşkil edir.

Baş verənlərdən nəticə çıxarmaq lazımdır, çünki sərmayə ehtiyacı hələ bitməyib. Pandemiyadan sonra bərpa prosesləri təzəcə başlayıb, Ukraynada baş verənlər dünya iqtisadiyyatına ağır təsir göstərəcək və Aİ-nin iqlim sahəsində məqsədlərinə çatmaq üçün daha yüksək dövlət xərcləri tələb olunacaq.

**Aydındır ki, Avropadakı seçicilərin əksəriyyəti üzv dövlətlərə bu məsələlərlə ədalətli məşğul olmağa imkan verən və əslində insanları və planeti qoruyan iqtisadi qaydaları dəstəkləyir.**



# XÜSUSİ KOMİTƏNİN YARADILMASI...

**Avropa Parlamenti böyük səs çoxluğu ilə “COVID-19 pandemiyası: gələcək üçün öyrənilmiş dərslər və tövsiyələr” üzrə xüsusi Komitənin yaradılmasına səs verib. Səsvermə Komitəyə pandemiyanın baxıcılara, qocalar evinin sakinlərinə, işçilərə təsirini nəzərdən keçirmək üçün aydın mandat verir.**

2020-ci ilin iyul ayında Avropa İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqları Birliyi (EPSU) Avropa Əlillər Forumu ilə birlikdə rəsmi olaraq parlamenti COVID-19 zamanı uzunmüddətli qayğı sektorunda böhranın həlli və idarə edilməməsi ilə bağlı araşdırma aparmağa çağırdı. Avropa Parlamentinin 88 deputatı çağırışı dəstəkləyərək hesab edirdi ki, əlimizdə olan bütün vasitələrdən istifadə edərək Avropa səviyyəsində nələr baş verdiyini mütləq öyrənmək lazımdır.

Səhiyyə sektoru, onun işçiləri və tibbi xidmətdən yararlananlar COVID-19-dan çox əziyyət çəkiblər. Kadr çatışmazlığı və hazırlığın olmaması kimi əvvəllər mövcud olan problemlər pandemiya zamanı daha da artdı. Bir çox hallarda ön xətdə çalışan qayğı işçiləri hiss edirdilər ki, onların daha yaxşı qorunması çağırışlarına məhəl qoyulmur. Bütün səylərinə baxmayaraq, onlar çox vaxt qayğı göstərdikləri insanları qoruya bilmirlər. Nəticə etibarilə Avropada COVID-19 ilə bağlı ölüm hallarının yarısı indiyədək internat tipli müəssisələrdə və dəstək xidmətləri mərkəzlərində baş verib.

Beləliklə, parlamentdə səsvermə yalnız uzunmüddətli qayğı işçiləri və istifadəçiləri üçün qələbə deyil, həm də yeni başlanğıcdır. Komitə baş verənlərə işıq salmaq və kadr çatışmazlığından tutmuş, pis iş şəraitinə qədər uzun müddət diqqətdən kənarda qalan struktur problemlərini düzəltmək üçün başlanğıc nöqtəsi olmalıdır.

**Böyük Britaniya hökuməti də COVID-19 pandemiyasına qarşı mübarizə ilə bağlı ictimai araşdırmasının layihəsinin şərtlərini də açıqlayıb. Bu araşdırmada Böyük Britaniyada səhiyyə və qayğı sektorunun reaksiyası nəzərdən keçiriləcək. Hazırlıq, potensial və davamlılıq; xəstəxanalarda pandemiya ilə mübarizə; kadrların sınaqdan keçirilməsi; işçi heyətinə və işçilərin sayına təsir - bütün bunlar nəzərə alınacaq amillərdir. Hökumətin qocalar evlərində və digər qayğı müəssisələrində pandemiya zamanı necə davrandığı araşdırılacaq. Bu şərtlər artıq ictimai şərh üçün açıqdır.**

**Səhifəni hazırladı:**
**Azər MUSTAFAYEV**

# ülfat

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ

Son səhifə

CÜMƏ AXŞAMI, 17 MART 2022-Cİ İL / № 10 (1277)




# Azərbaycanda pandemiya bitir?

## ARTIQ BİZ STABİLLƏŞMƏ MƏRHƏLƏSİNDƏYİK

***Bir çox ölkələr kimi, Azərbaycanda da artıq pandemiya sona yetmək üzrədir. Hazırda aktual olan bu məsələ ilə bağlı əhali arasında maraq doğuran sualları Milli Məclisin Səhiyyə Komitəsinin üzvü Müşfiq Məmmədliyə ünvanladıq.***

**-Müşfiq müəllim, Azərbaycanda pandemiya ilə mübarizə hansı həddədir?**

-Pandemiyanın hazırkı vəziyyətinə qiymət versək, yoluxmaların sayında müəyyən enmələrdən sonra stabilləşmələr müşahidə edirik. Ümumilikdə isə, yoluxmaların sayının azalmasını və xəstəliyin daha yumşaq kliniki simptomlarının yarandığını görürük. Bütün bunlar onu göstərir ki, artıq biz stabilləşmə mərhələsindəyik. Yazda isə virusun insanla təmasına bir növ alışılmış xəstəlik halına gəlməsinin şahidi olacağıq. Pandemiya ilə mübarizədə digər ölkələrə nəzərən biz irəli mövqedəyik. Bunun da əsas səbəbləri zamanında doğru addımların atılması, vaksinasiyanın sürətli şəkildə aparılması və tibb sisteminin pandemiya ilə mübarizəni vaxtında düzgün idarə etməsidir.

**-Pandemiyanın azalması əhali arasında laqeydlik yaradır, hansı təhlükələr hələ də qalmaqdadır?**

**-Təbii ki, əvvəlki dövrlərə nəzərən əhalidə müəyyən arxayınçılığın yaranması laqeydlik səviyyəsinə çata bilər. Lakin insanlar unutmamalıdırlar ki, hələ pandemiya tamamilə sona çatmayıb və hər bir insan qorunma tədbirlərinə ciddi şəkildə riayət etməlidir.**



Biz yazda virusun daha da yumşalmasını müşahidə edə bilərik. Amma əsas təhlükə virusun mutasiyaya uğrayaraq təhlükəli və insan orqanizmi üçün daha zərərli ştammların yaranmasıdır.

Onu da bildirmək istəyirəm ki, spontan olaraq hansısa bölgədə yoluxanların artmasının şahidi ola bilərik. Ümumi vəziyyətə gəldikdə isə, biz pandemiyanın sürətinin azalmasının artıq insan orqanizminin virusla bir-birinə adaptasiya olmasının şahidi oluruq.

**-Bir sıra ölkələrdə tibbi maskaların məcburi istifadəsi tamamilə aradan qaldırıldı, ölkəmizdə yaxın zamanlarda belə addımın atılması gözlənilirmi?**

-Əlbəttə, proseslər bu istiqamətdə müsbət tendensiya ilə gedərsə, tezliklə ölkəmizdə də tibbi maskalardan məcburi istifadə edilməsi ləğv olunacaq.

**-Pandemiya şərtlərinin yumşaldılması ilə əlaqədar beynəlxalq nəqliyyat sistemində nə kimi addımlar atılması gözlənilir? Yəni yaxın zamanda quru yol nəqliyyatı bərpa oluna bilərmi?**

-Yolların açılması mərhələli şəkildə həyata keçirilir. Hər bir ölkə bütün iqtisadi və beynəlxalq əlaqələrin tamamilə pandemiyadan əvvəlki dövrə uyğun olmasının tərəfdarıdır. Lakin vətəndaşlarının sağlamlığı həm də hər bir ölkənin təhlükəsizlik qarantıdır. Bu baxımdan anlayışla, səbirlə yanaşmaq lazımdır. Tədricən biz əvvəlki proseslərin bərpasını müşahidə edəcəyik.

**-Virusun azalması Azərbaycan iqtisadiyyatına, məşğulluğa necə təsir edir?**

-Pandemiya riskinin aradan qalxması, yoluxmaların azalması iqtisadi sferada canlanmaya gətirib çıxaracaq. Bu həm məşğulluğun, həm də iqtisadiyyatın pandemiyadan zərər görmüş sahələrinin bərpası, aktivliyin artması baxımından vacibdir. Pandemiyadan sonrakı dövrdə qonşu dövlətlərlə iqtisadi əlaqələrin davamlı qurulması orada COVID 19-un nə dərəcədə təhlükəsiz və təhlükəli həddə olmasından asılıdır.

**-Pandemiyanın növbəti dalğası olarsa, müvafiq təşkilatlarımız bunun vaxtında qarşısını almaq imkanlarına malikdirmi?**

**-Hazırkı vəziyyətin analizi, Ümumdünya Səhiyyə Təşkilatının bu sahədə hesabatları göstərir ki, artıq biz yoluxmaların sayının azalması ilə yanaşı, ümumiyyətlə, pandemiyanın tədricən zəifləməsinin şahidi olacağıq. Əgər gözlənilmədən virusun qarşısıalınmaz yeni mutasiyası baş verməzsə, prosesin sönməsi realdır. Bu baxımdan ölkəmizdə vaksinasiya, xüsusən buster dozada əhəmiyyətli rəqəmlərin alınması uğurla həyata keçirilmişdir. Əhalinin 60-70 faizi vaksinasiya olarsa, vətəndaşlarımızın pandemiya ilə əlaqədar hansısa bir risk altında qalması ehtimalı çox az olar.**

**-Vətəndaşlarımızın çoxu buster doza vaksin vurdurub, gələcəkdə 4-cü, 5-ci vaksinə ehtiyac olacaqmı?**

-Xeyr, hazırda 4-5 doza vaksin nəzərdə tutulmamışdır. Proseslərin bu istiqamətdə müsbət tendensiyası onu göstərir ki, buster doza kifayət edəcək.

**-Hazırda ölkəmizdəki xəstəxanalarda pandemiya ilə əlaqədar vəziyyət necədir?**

**- Abşeron yarımadasına diqqət yetirsək, koronavirus xəstələri üçün nəzərdə tutulmuş modul tipli xəstəxanaların çoxunun, ehtiyac olmadığına görə, fəaliyyəti dayandırılmışdır. Bu sahədə fəaliyyət göstərən xəstəxanalarda isə vəziyyət qənaətbəxşdir. Yəni Azərbaycanda ümumi vəziyyət stabildir. Bu, Azərbaycan səhiyyə sistemində son illər aparılan islahatların və bu islahatlar çərçivəsində uğurla fəaliyyət göstərməsinin nümunəsidir. Koronavirus kimi böyük bəla qarşısında dünyanın ən inkişaf etmiş səhiyyə sistemlərinin hansı vəziyyətə düşdüyünün hamımız şahidi olduq. Lakin əminliklə deyə bilərik ki, Azərbaycan bu sınaqdan da uğurla keçir.**

**Gülöyşə MƏMMƏDLİ**

# Aztəminatlı əməkdaşlarla görüş



**Novruz bayramı ərəfəsində Gəncə Dövlət Universitetinin Həmkarlar İttifaqı Komitəsinin keçirdiyi görüşə əsasən universitetin aztəminatlı əməkdaşları dəvət olunmuşdu.**

**Görüşdə çıxış edən HİK sədri Afaq Qasımova xalqımızın bu qədim bayramının adət-ənənələrindən, onların fəlsəfi mahiyyətindən, doğurduğu xoş hisslərdən danışdı. Dedi ki, Novruz həm də insanların mehribanlaşdığı, xeyirxah əməllərə üstünlük verdiyi mərasimdir. Biz də Novruzun bu tələbinə sadiq qalaraq, hər il olduğu kimi, bu il də aztəminatlı üzvlərimizi bayram hədiyyələri ilə sevindirməyi qərara aldıq. Bayram ərəfəsində həmkarlar ittifaqı komitəsinin xətti ilə universitetin 300 nəfər əməkdaşına sovqat bağlaması paylanılıb.**

Görüş iştirakçıları onlara göstərilən bu qayğıya görə həmkarlar ittifaqı komitəsinə təşəkkürlərini bildirdilər.

**Qeyd edək ki, belə bir tədbir 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə də keçirilmişdi. 40 qadın əməkdaşın hər birinə pul mükafatı təqdim olunmuşdu.**

# Şəhid ailəsi ziyarət edildi



***Novruz bayramının gəlişi ilə əlaqədar olaraq Azərbaycan Dövlət Aqrar Universitetinin Həmkarlar ittifaqı Komitəsi himayəyə götürdüyü Vətən müharibəsi şəhidi Canlar Cavadovun ailəsini ziyarət etdi, onları bayram sovqatı ilə sevindirdi.***

# "Zenit" İC-nin yetirməsi bürünc medala sahib olub

**Bolqarıstanın Plovdiv şəhərində 23 yaşadək güləşçilərin Avropa çempionatı keçirilib.**




Yarışda iştirak edən sərbəst güləşçimiz "Zenit" İdman Cəmiyyətinin yetirməsi Tofiq Əliyev bürünc medala sahib olub.

57 kq. çəki dərəcəsində mübarizəyə qoşulan Tofiq 1/4 finalda böyüklər arasında dünya və Avropa üçüncüsü Horst Lerə (Almaniya) məğlub olub. Rəqibin finala yüksəlməsi ona 3-cü yer uğrunda mübarizə şansı verib. Tofiq bürünc medal uğrunda bolqar İvaylo Tisovla güləşib və rəqibinə tam üstünlüklə qalib gələrək Avropa üçüncüsü olub. Məşqçi-müəllimi Cavid Qurbanzadə yetirməsinin bu nəticəsindən razı qaldığını bildirib.

Yarışda 10 çəkidən 9-da təmsil olunan millimiz 4 qızıl və 3 bürünc medal əldə edib. Yekunda 159 xal toplayan yığmamız komanda hesabında Avropa çempionu olub. Türkiyə (151) ikinci, Gürcüstan (149) isə üçüncü yeri tutub.

***Qeyd edək ki, həm medalların əyarına, həm də komanda hesabına görə bu nəticə sərbəst güləş millimizin U-23 Avropa çempionatları tarixində ən yaxşı göstəricisidir.***

## ALLAH RƏHMƏT ELƏSİN!

AHİTA-nın sədri Nadir Əliyev, Həmkarlar İttifaqı Komitəsinin sədri Binyamin Mənsimzadə və kollektivi AHİK sədri, millət vəkili Səttar Möhbalıyevə əzizi

**MİNA xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

AHİTA-nın sədri Nadir Əliyev, Həmkarlar İttifaqı Komitəsinin sədri Binyamin Mənsimzadə və kollektivi Mədəniyyət İşçiləri HİRK-in sədri Cəmilə Səttarovaya həyat yoldaşı

**RUHULLA müəllimin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Səhiyyə İşçiləri HİRK-in sədri Emin Əfəndiyev və aparat işçiləri sahə Hİ Qazax Rayon Şurasının sədri Sevda Həsənovaya anası

**SONA xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Təhsil İşçiləri Azad Hİ Qaradağ Rayon Komitəsinin sədri Zümrüd Rzayeva Mədəniyyət İşçiləri HİRK-in sədri Cəmilə Səttarovaya həyat yoldaşı

**RUHULLA müəllimin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Təhsil İşçiləri Azad Hİ Sabunçu Rayon Komitəsinin sədri Alı Məmmədov RK-nın sədr müavini Ramik Xudiyevə anası

**MİNA xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mədəniyyət İşçiləri Hİ Sumqayıt Şəhər Komitəsinin sədri Şahin Şəfiyev Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya həyat yoldaşı

**RUHULLA müəllimin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mədəniyyət İşçiləri Hİ Qubadlı Rayon Komitəsinin sədri Yaqub Vəliyev Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya həyat yoldaşı

**RUHULLA müəllimin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mədəniyyət İşçiləri Hİ Zaqatala Rayon Komitəsinin sədri Sona Qaziyeva Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya həyat yoldaşı

**RUHULLA müəllimin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mədəniyyət İşçiləri Hİ Daşkəsən Rayon Komitəsinin sədri Mətanət Abdullayeva Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya həyat yoldaşı

**RUHULLA müəllimin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mədəniyyət İşçiləri Hİ Zərdab Rayon Komitəsinin sədri Vəfa Bayramova Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya həyat yoldaşı

**RUHULLA müəllimin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Heydər Əliyev adına İdman-Konsert Kompleksinin müdiriyyəti və HİK-in sədri Xuraman Əlifova Mədəniyyət İşçiləri HİRK-in sədri Cəmilə Səttarovaya həyat yoldaşı

**RUHULLA müəllimin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Mədəniyyət İşçiləri Hİ Balakən Rayon Komitəsinin sədri Sevda Yusibova Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya həyat yoldaşı

**RUHULLA müəllimin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**Baş redaktor:**
AQİL DADAŞOV
**Təsisçi:**
Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası

Qeydiyyat № 147
Tiraj: 7505
Sifariş: 799
Redaksiyanın ünvanı:
Bakı - 1005,
Gənclər meydanı 3
Telefonlar: 492-75-55; 492-42-47

"Azərtürk Bank"
Hesab nömrəsi:
AZ08AZRT3809001944
0000132001
Kod: 5:0:7:6:9:9
VÖEN: 1700349431
İndeks: 0271

Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" Nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.
e-mail: ulfet-az@mail.ru
**Sərbəst qiymət**